ISSN 2521-1331

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası

# MİLLİ TƏHLÜKƏSİZLİK VƏ HƏRBİ ELMLƏR

elmi-praktik jurnal



№ 1(8)

Bakı – 2022

ISSN 2521-1331

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi**
**Silahlı Qüvvələrin Hərbi Akademiyası**

# MİLLİ TƏHLÜKƏSİZLİK VƏ HƏRBİ ELMLƏR

**Elmi-praktik jurnal**

**Cild 8, №1, 2022-ci il**

**Azerbaijan Republic Ministry of Defense**
**War College of the Armed Forces**

# NATIONAL SECURITY AND MILITARY SCIENCES

**Scientific-practical journal**

**Volume 8, №1, 2022**

**Bakı – 2022**

**"MİLLİ TƏHLÜKƏSİZLİK VƏ HƏRBİ ELMLƏR" JURNALININ REDAKSİYA HEYƏTİ:**

**Baş redaktor** – m.t.h.e.d., professor, e.o. polkovnik Həşimov Elşən Qiyas oğlu;
**Məsul katib** – polkovnik-leytenant İskəndərov Xəyal İbrahim oğlu;
**Dil və üslub üzrə redaktor** – Mirzəliyeva Aytən Akif qızı.

**Redaksiya heyətinin üzvləri:**

– general-leytenant, professor Heydər Piriyev;
– general-mayor Azər Əliyev;
– akademik Əli Abbasov;
– akademik Telman Əliyev;
– tex.e.d., professor Əminağa Sadıqov;
– siy.e.d., professor Elman Nəsirov;
– tex.e.d., professor Əsgər Tağızadə;
– f.-r.e.d., professor Mirzə Qurbanov;
– tex.e.d., professor Nadir Ağayev;
– tex.e.d., professor Vaqif Qasımov;
– psi.e.d., professor Elnarə Şəfiyeva;
– bio.e.d., professor Elimxan Cəfərov;
– tex.e.d., professor Bayram İbrahimov;
– r.e.d., professor Etibar Pənahov;
– hüq.e.d., prof., polis polkovniki Etibar Əliyev;
– m.t.h.e.d., professor, polkovnik Bəbir Quliyev;
– m.t.h.ü.f.d., dosent, polkovnik Arif Həsənov;
– tar.e.d., professor Nurulla Əliyev;
– iq.e.d., professor Rasim Həsənov;
– tar.e.d., dosent Mehman Süleymanov;
– tex.ü.f.d., professor Əziz Talıbov;
– f.-r.ü.f.d., dosent Elxan Səbziyev;
– f.-r.ü.f.d., dosent Ədalət Paşayev;
– f.-r.ü.f.d., dosent Arzuman Həsənov;
– fil.ü.f.d., dosent Sədi Sadiyev;
– siy.e.ü.f.d. Vüqar Məmmədzadə;
– tibb ü.f.d. Surxay Məmmədov.

**"Milli Təhlükəsizlik və Hərbi Elmlər" jurnalının beynəlxalq redaksiya heyəti:**

– tar.e.d., professor İbrahim Ethem Atnur (Türkiyə);
– tex.e.d., professor Georgiy A. Kuçuk (Ukrayna);
– hüq.e.d., professor Georgi Çiladze (Gürcüstan);
– hərb.e.d. Sergey P. Yaroş (Ukrayna);
– sos.e.ü.f.d., professor Vojieç Quzeviç (Polşa);
– sos.e.ü.f.d., professor Alba Iulia Popescu (Rumıniya);
– siy.e.ü.f.d., dosent Pyotr Qavliçek (Polşa);
– ped.ü.f.d., dosent Andrey Pieçivok (Polşa);
– tex.ü.f.d., dosent Ayhan Aytaç (Türkiyə);
– tex.ü.f.d. İqor Linkov (ABŞ);
– tar.ü.f.d. Svetlana Pavlovskaya (Ukrayna)
– bey.m.ü.f.d. Nikoloz Esitaşvili (Gürcüstan).

"Milli təhlükəsizlik və hərbi elmlər" jurnalında verilmiş materiallardan istifadə zamanı mütləq jurnala istinad edilməlidir.

Jurnal 09.07.2015-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınıb. Qeydiyyat nömrəsi: 3991.

"Milli təhlükəsizlik və hərbi elmlər" jurnalı elmi tədqiqatların əsas müddəalarının nəşr edilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan nəşrlər siyahısına daxil edilmişdir.

**Təsisçi:** Silahlı Qüvvələrin Hərbi Akademiyası.

**Ünvan:** AZ1065, Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, akademik Şəfaət Mehdiyev küçəsi 136, "Qırmızı Şərq" hərbi şəhərciyi, Silahlı Qüvvələrin Hərbi Akademiyası, Adyunktura və elm şöbəsi.

**“NATIONAL SECURITY AND MILITARY SCIENCES”**
**JOURNAL EDITORIAL BOARD:**

**Editor-in-chief** – ScD in nat.sec.mil.sc., professor, reserved colonel Hashimov Elshan Giyas;
**Executive secretary** – lieutenant-colonel Iskandarov Khayal Ibrahim;
**Language and stylistic editor** – Mirzalieva Aytan Akif.

**Editorial Board:**

– lieutenant-general, prof. Heydar Piriev;
– major-general Azer Aliev;
– academician Ali Abbasov;
– academician Telman Aliev;
– ScD in tech. sc., prof. Aminagha Sadigov;
– ScD in pol. sc., prof. Elman Nasirov;
– ScD in tech. sc., prof. Asgar Taghizadeh;
– ScD in phys.-math., prof. Mirza Gurbanov;
– ScD in tech. sc., prof. Nadir Aghaev;
– ScD in tech. sc., prof. Vagif Gasimov;
– ScD in psych., prof. Elnare Shafieva;
– ScD in biology, prof. Elimkhan Jafarov;
– ScD in tech. sc., prof. Bayram Ibrahimov;
– ScD in math. sc., prof. Etibar Panahov;
– ScD in law sc., prof., colonel Etibar Aliev;
– ScD in nat.sec.mil.sc., prof., colonel Babir Guliev;
– PhD in n.s.m.sc., assoc. prof. colonel Arif Hasanov;
– ScD in history, prof. Nurulla Aliev;
– ScD in economics, prof. Rasim Hasanov;
– ScD in his., assoc. prof. Mehman Suleymanov;
– PhD in tech. sc., prof. Aziz Talibov;
– PhD in phys.-math., assoc. prof. Elkhan Sabziev;
– PhD in phys.-math., assoc. prof. Adalet Pashaev;
– PhD in phys.-math., assoc. prof. Arzuman Hasanov;
– PhD in philology Sadi Sadiyev;
– PhD in pol. sc. Vugar Mammadzada;
– PhD in medic. sc. Surkhay Mammadov.

**“National Security and Military Sciences” journal**
**International Editorial Board**

– ScD in history, prof. Ibrahime Ethem Atnur (Turkiye);
– ScD in technical sciences, prof. Georgiy A. Kuchuk (Ukraine);
– ScD in law, professor Georgi Chiladze (Georgia);
– ScD in military sciences Sergey P. Yarosh (Ukraine);
– PhD in social sciences, professor Wojciech Guzewicz (Poland);
– PhD in social sciences, professor Alba Iulia Popescu (Romania);
– PhD in political sciences, assoc. prof. Piotr Gawliczek (Poland);
– PhD in pedagogical sciences, assoc. prof. Andrzej Pieczywok (Poland);
– PhD in technical sciences, assoc. prof. Ayhan Aytaç (Turkiye);
– PhD in technical sciences Igor Linkov (USA);
– PhD in history Svetlana Pavlovskaya (Ukraine);
– PhD in international relations Nikoloz Esitashvili (Georgia).

While using any kind of material given in “National security and military science” you should refer to the journal.

The journal was registered on 09.07.2015 in the Ministry of Justice of the Republic of Azerbaijan. Registration Number: 3991.

“National security and military sciences” journal has been included in the list of recommended publications by Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for the publication of main theses of scientific researches.

**Founder:** War College of the Armed Forces.

**Address:** AZ1065, Republic of Azerbaijan, Baku, Yasamal district, str. academician Shafaet Mehdiev 136, “Red East” military settlement, War College of the Armed Forces, Adjuncture and science department.

## MÜNDƏRİCAT

***HƏRBİ-XÜSUSİ ELMLƏR***

**Ehtiyata buraxılan hərbi qulluqçuların məlumat bazasının yaradılması sosial adaptasiya prosesinin predmeti kimi**
*Rəşad İbrahimov, Arif Həsənov* ........ 7

**Albaniyada istehkam qurğuları**
*Nurulla Əliyev* ........ 14

**Focusing the German foreign and security policy with respect to Georgia**
*Mamia Balakhadze* ........ 24

***HƏRBİ-NƏZƏRİ ELMLƏR***

**Систематизация свойств образцов вооружения, военной и специальной техники**
*Анатолий Ковтун, Владимир Табуненко* ........ 30

***MİLLİ TƏHLÜKƏSİZLİK***

**Azərbaycanın izolyasiya siyasəti: səbəblər, nəticələr və çıxış yolları**
*Vüqar Məmmədzadə, Elxan Səbziyev* ........ 41

**İqtisadi asılılıq milli təhlükəsizliyə təhdid kimi (Cənubi Qafqaz dövlətlərinin nümunəsində)**
*Xəyal İskəndərov, Vüqar Məmmədzadə* ........ 52

## CONTENTS

*MILITARY SPECIAL SCIENCES*

**Creation of the database of discharged military as a subject of the process of social adaptation**
*Rashad Ibrahimov, Arif Hasanov* ........ 7

**Fortifications in Albania**
*Nurulla Aliev* ........ 14

**Focusing the German foreign and security policy with respect to Georgia**
*PhD Mamia Balakhadze* ........ 24

*MILITARY THEORETICAL SCIENCES*

**Systematization of properties of weapons, military and special equipment**
*Anatoly Kovtun, Vladimir Tabunenko* ........ 30

*NATIONAL SECURITY*

**Azerbaijan’s policy of isolation: causes, results and ways out**
*Vugar Mammadzade, Elkhan Sabziyev* ........ 41

**Economic dependence as a threat to national security (In the sample of the South Caucasus states)**
*Khayal Iskandarov, Vugar Mammadzada* ........ 52

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№1 (8)/2022, səh. 7-13**
*HƏRBİ-XÜSUSİ ELMLƏR* *MILITARY SPECIAL SCIENCES*

UOT 355/359

# EHTİYATA BURAXILAN HƏRBİ QULLUQÇULARIN MƏLUMAT BAZASININ YARADILMASI SOSİAL ADAPTASİYA PROSESİNİN PREDMETİ KİMİ

**polkovnik Rəşad İbrahimov[1]**
**m.t.h.e.ü.f.d., dosent, polkovnik Arif Həsənov[2]**
[1]*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
[2]*Hərbi Təhsil İdarəsi*
E-mail: arifhasan2828@yandex.ru

***Xülasə.*** Məqalədə hərbi qulluqçunun xidmətdən sonrakı statusunun xüsusiyyətləri göstərilir. Onun mülki həyata adaptasiyası prosesində çətinlikləri, eləcə də üstünlükləri və spesifik keyfiyyətləri müzakirə edilir. Azərbaycan Respublikası Silahlı Qüvvələrindən ehtiyata buraxılan hərbi qulluqçuların məlumat bazasının yaradılması təklif olunur, bunun üçün proqram təminatının nəzəri müddəaları verilir.

**Açar sözlər:** sosial adaptasiya, ehtiyata buraxılan hərbi qulluqçular, inteqrasiya, məlumat bazası, proqram təminatı.

## Giriş

Hərbi qulluqçular cəmiyyətin xüsusi diqqətini çəkən təbəqədir, ona görə də ehtiyata buraxılan hərbi qulluqçularla (EBHQ) bağlı problemlər daha çox rezonans doğurur. Tədqiqat işinin aktuallığını şərtləndirən əsas faktor EBHQ-lərin sosioprofessional adaptasiyası mexanizminin işlənməsinə zərurətin yaranmasıdır. Əslində bu tip mexanizmlər dünyanın bir sıra aparıcı ölkələrində mövcuddur və təhlillər göstərir ki, belə ölkələrdə cəmiyyətin orduya dəstəyi digərləri ilə müqayisədə daha güclü və davamlıdır. Davamlı o mənada vurğulanır ki, xalq orduya yalnız böhran şəraitində deyil, sülh dövründə də eynisəviyyəli münasibəti nümayiş etdirir. 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının Ali Baş Komandan İlham Əliyevin bir çağırışı ilə Orduya göstərdiyi dəstək dünyanın heç bir ölkəsi ilə müqayisə olunmayacaq qədər güclü idi. Müharibədən sonra da ölkə rəhbərliyinin EBHQ-lərə göstərdiyi dəstək kifayət qədər genişmiqyaslı olsa da, meydana çıxan bir sıra neqativ hallar ümumi işin effektivliyinə müəyyən mənada xələl gətirmiş oldu. Məsələn, bəzi qurumlarda EBHQ-lərə göstərilən laqeyd münasibət narazı bir qrupun Müdafiə Nazirliyinin qarşısında toplanması ilə nəticələndi. Sonradan məlum olur ki, həmin problemlə heç Müdafiə Nazirliyi məşğul olmur. Lakin sadə vətəndaşlar bunu fərqləndirə biləcək bilik və informasiyaya malik deyil. Və yaxud, qazilərə göstərilən diqqət və qayğıdan istifadə edən bəzi fürsətçilər “qazi” adı ilə müxtəlif “məsələləri” həll etmək üçün güzəştlər qazanmağa çalışır, buna nail olmayanda narazılıq edərək videolar çəkir, sosial şəbəkələrdə paylaşır və bu da qısa müddətdə bütün ölkədə yayılır. Sonradan məlum olur ki, narazı olan həmin şəxs heç qazi deyilmiş. İstənilən halda, bütün neqativ hallar ölkədə böyük bir qrupun adına ləkə gətirir. Bunun qarşısının alınmasının ən vacib yollarından biri EBHQ-lərin cəmiyyətə inteqrasiyasının asanlaşdırılmasıdır. Məsələn, ABŞ-da EBHQ-lərin sosial adaptasiyası, eləcə də işlə təmin olunması məqsədilə “Ömürlük hərbçi – Adaptasiyaya dəstək proqramı” yaradılmışdır. Bu proqramın sayəsində EBHQ-lər nəinki ABŞ daxilində, hətta dünyanın 50-yə yaxın ölkəsində işlə təminolunma imkanı qazanmışdır [1]. Qeyd edək ki, EBHQ-lərin məlumat bazasının hazırlanması heç bir tədqiqat işinin bilavasitə obyekti və ya predmeti olmamışdır. Lakin bəzi elmi əsərlərdə tədqiq olunan problemin müəyyən aspektlərinə toxunulmuşdur. Məsələn, professor Venelin Terziyev və professor Sevdalina Dimitrova Bolqarıstanda EBHQ-lərin “hazırlıq mərhələsi” “ehtiyata buraxılmadan öncə psixoloji gərginlik dövrü”, “mülki həyata kəskin əqli reaksiya mərhələsi” və “yenidən adaptasiya dövrü” üzrə sosial-psixoloji xüsusiyyətlərini tədqiq etmişlər [2]. Deyv Bləkbörn Kanada Ordusunda hərbi xidmətin son dövrünü adaptasiya prosesinin bir elementi kimi əsaslandırmağa çalışmışdır [3]. T.A.Çertuşkina, N.B.Şmeleva, O.V.Şabanova və b. Rusiyada EBHQ-

lərin sosioprofessional adaptasiyası məsələsini tədqiq etmiş və bu istiqamətdə yeni bir mexanizmin hazırlanması zərurətini elmi-nəzəri cəhətdən əsaslandırmışlar. Müəlliflər, eyni zamanda hər bir fərdin adaptasiyası prosesində zəruri olan psixoloji resurs və keyfiyyətləri təqdim etmişlər [4]. Ceyms Makdermotun doktorluq dissertasiyası da Böyük Britaniya və Şimali İrlandiya Krallığında ordu sıralarından ehtiyata buraxılan hərbi qulluqçuların təcrübəsinin təhlilinə həsr edilmişdir. Müəllif iki həyat tərzi arasındakı fərqləri ortaya qoymağa çalışmışdır [5]. K.L.Pedersen və K.Vieser Danimarka Ordusundan EBHQ-lərin sosial adaptasiyasına tətbiq olunan mövcud mexanizmləri tədqiq etmişlər [6].

Məqalədə əsas məqsəd Azərbaycan Respublikasında hərbçilərin ehtiyata buraxılmadan öncə sosial, psixoloji xüsusiyyətlərini və professional statusunu özündə əks etdirən məlumat bazası proqram təminatının nəzəri müddəalarını işləməkdir. Məqalədə təqdim olunan proqram təminatı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin müvafiq idarələrinin, Dövlət Səfərbərlik Xidmətinin idarə və təşkilatlarının, məşğulluq mərkəzlərinin EBHQ-lərlə iş üzrə fəaliyyətinin təkmilləşdirilməsində istifadə edilə bilər. Tədqiqat işinin ərsəyə gəlməsində müqayisəli təhlil, sintez, induksiya və deduksiya kimi nəzəri tədqiqat metodlarından istifadə edilmişdir.

## EBHQ-lər cəmiyyətin xüsusi kateqoriyası kimi

Hərbçi peşəsini seçmiş şəxs bu titulu ömrünün sonuna qədər saxlayır. O, əvvəlcə, aktiv xidmətdə olan hərbi qulluqçu, sonra EBHQ, daha sonra isə istefada olan hərbi qulluqçu olur. Bu tədqiqat işində biz əsas diqqəti EBHQ-lərə yönəldəcəyik. Belə ki, hazırda cəmiyyətə inteqrasiya prosesində yaranan problemlərin çoxu EBHQ-lərlə bağlıdır. Ehtiyata buraxıldıqdan sonra hərbi qulluqçunun missiyası dəyişsə də, öhdəliyi dəyişmir. Ola bilsin ki, o, təlimlərdə iştirak etmir, missiyalara göndərilmir, lakin orduda ona yenə ehtiyac var və ölkədə səfərbərlik elan olunduğu təqdirdə xidmətə cəlb edilir. Ona görə də EBHQ-lərin müvafiq işlə təmin olunması onların cəmiyyətə inteqrasiyası prosesini asanlaşdırmaqla yanaşı, gənc nəslin motivasiyasında mühüm rol oynayır. Aktiv xidmətdə olan hərbi qulluqçuların cəmiyyətdə təmsilinə imkan olmadığından (xidməti məhdudiyyətləri nəzərə alsaq) EBHQ-lər mülki həyatda Ordunu təmsil edən əsas qrup hesab olunur. Onların sivil cəmiyyətdə Ordunun adından çıxış etməsində bilik və təcrübələri mühüm rol oynayır. Xalqın orduya dəstəyi bir çox hallarda onların nümunəsində təmin olunur. Bu isə, nəinki Ordunun nüfuzu, hətta ölkənin milli müdafiəsi məsələsində əsas faktorlardan biridir. EBHQ-lər elə kateqoriyadır ki, onlar həm hərbçilərin, həm də mülkilərin problemlərini yaxşı başa düşürlər. Bu iki qrup arasında qarşılıqlı əlaqə yaratmaqla yanaşı, onlar ölkənin müxtəlif sektorlarında ümumi məqsədlərinin təmin olunmasında yaxından iştirak edə bilərlər. Bu məsələnin reallaşması isə, öz növbəsində yeni mexanizmin işlənməsini şərtləndirir.

Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçu əvvəl-axır ordu sıralarından ehtiyata buraxılmalıdır. Hərbi qulluqçuların ehtiyata buraxılma səbəbləri fərqli olsa da, onların mülki həyata inteqrasiyası prosesində, xüsusən də məşğulluq məsələsində qarşılaşdıqları problemlərin əksəriyyəti eyni xarakter daşıyır. Ümumiyyətlə, bu problemlərin həllinə kömək edə biləcək adaptasiya strategiyasının olmaması EBHQ-lərin bəzilərinin, ümumiyyətlə, mülki həyata qayıtdıqdan sonra özlərini cəmiyyətdən kənarlaşdırılmış hiss etmələrinə və xüsusən də məşğulluq məsələlərində diqqətdən kənarda qalmalarına səbəb olur. Deyv Bləkbörn iddia edir ki, EBHQ-lərin qarşılaşdığı psixoloji problemlər, əsasən, mülki həyata uğursuz adaptasiya prosesindən qaynaqlanır [1]. Bunun bir sıra səbəbləri vardır. Təhlillər göstərir ki, dünyanın ən güclü ordusu hesab olunan ABŞ Ordusunda 2001-ci ildən bugünədək 3 milyona yaxın hərbi qulluqçu Əfqanıstan, İraq və Yaxın Şərqdə həyata keçirilən bir sıra hərbi əməliyyatlarda iştirak etmişdir. Həmin hərbi qulluqçuların böyük əksəriyyətində ciddi narahatlıq, depressiya, fiziki və zehni problemlər müşahidə edilmişdir. Hətta fiziki və psixoloji narahatlıqları olan EBHQ-lərin 25%-dən çoxunda sosiallaşma və özünəqayğıda bir sıra problemlər ortaya çıxmışdır. Bəziləri münasibət qurmaqda, bəziləri yeni iş axtarmaqda çətinliklərlə qarşılaşmışlar ki, bu da onların müəyyən hissəsinin, hətta intihar etməsi ilə nəticələnmişdir.

Sağlamlıq və sosial xidmətlər üzrə empirik tədqiqatlar onların bir çox problemini adaptasiya və ya yenidən inteqrasiya ilə əlaqələndirir [7]. Azərbaycan Ordusu da müharibə təcrübəsi olan ordudur və 2020-ci il 27 sentyabr tarixində başlayan İkinci Qarabağ müharibəsinə şəxsi heyətin mütləq əksəriyyəti cəlb olunmuşdu. Hətta onların müəyyən bir qismi Birinci Qarabağ müharibəsinin iştirakçıları idi. Müharibədən dərhal sonra Azərbaycan Ordusundan bir qrup şəxs ehtiyata buraxıldı, onların da böyük əksəriyyəti müharibədə xəsarət almış hərbi qulluqçular idi. Həmin şəxslər artıq cəmiyyətdə daha həssas, diqqət mərkəzində olan xüsusi bir kateqoriyanı təşkil edir. Hər il yüzlərlə hərbi qulluqçu müxtəlif səbəblərdən ordu sıralarından ehtiyata buraxılır. Bu səbəblər əvvəlki tədqiqat işlərində qruplaşdırılaraq təqdim edilmişdir. Belə ki, onların bəziləri yaşın, bəziləri xidmət ilinin son həddinə, bəziləri xəstəliyə, bəziləri xidməti uyğunsuzluğa və s. səbəblərə görə ordu sıralarından ehtiyata buraxılırlar [7]. Bu baxımdan, hərbi qulluqçuların mülki həyata transformasiya prosesinə xidmət dövründə hazırlanması bu çətinliklərin azaldılmasında mühüm addım hesab oluna bilər.

## EBHQ-lərin məlumat bazasının yaradılmasının əhəmiyyəti

EBHQ-lərin sosial adaptasiyası ölkədə insan kapitalının qorunması istiqamətində həyata keçirilən kompleks işin tərkib hissəsi hesab oluna bilər. Bu baxımdan, EBHQ-lərin mülki həyata adaptasiyası prosesində onların bilik və bacarıqlarından, vərdişlərindən səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, EBHQ-lərin sosial adaptasiyası prosesində qarşılaşdıqları çətinlik və problemləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1) onların ailənin nizamına uyğunlaşması. Çünki, onların xidmətdə olduqları dövrdə ailədə müəyyən nizam formalaşır ki, EBHQ ona uyğunlaşmaqda çətinlik çəkə və ya ümumiyyətlə uyğunlaşmaya bilər;

2) işlə təminat və cəmiyyətin daha səmərəli qruplarına inteqrasiya. Məlumdur ki, cəmiyyətdə fərdlərin keyfiyyətləri əsasında müəyyən qruplar formalaşır və onlar vaxtlarını, adətən, birlikdə keçirirlər. Bu baxımdan, EBHQ-lər də tapdıqları yeni məşğuliyyətlə mütləq şəkildə həmin qruplardan birinin üzvünə çevrilir. Məsələn, elə EBHQ var ki, təlim-tədris prosesinə cəlb olunur, eləsi var taksi fəaliyyəti ilə, həkimliklə, bizneslə məşğul olur, eləsi də var ki, dövlət qulluğunda yer alır. Şübhəsiz ki, bunlar hamısı cəmiyyətdə fərqli qrupları təşkil edir və onlara adaptasiya da fərqli xüsusiyyətlərə malik olur;

Beləliklə, EBHQ-lərin sosial adaptasiyası prosesində ən ciddi məsələlərdən biri onların mülki həyatda işlə təmin olunmasıdır. Hələ 2005-ci ildə İverson qeyd etmişdir: *“Ordudan ehtiyata buraxılan hərbi qulluqçuların növbəti mərhələdə müvəffəqiyyətlə işlə təmin olunmasına təsir edən faktorlar haqqında çox az məlumat var”* [5, s.1]. Lakin son illərdə bu istiqamətdə xeyli iş aparılmış və EBHQ-lərin işlə təminatı baxımından mülki həyata adaptasiyası prosesində ciddi irəliləyişlərə nail olunmuşdur. Buna baxmayaraq, dünyanın ən güclü ordusuna malik ABŞ-da 2020-ci ildə həyata keçirilmiş sorğuya cəlb olunan EBHQ-lərin 50%-i qeyd etmişdir ki, ordu onları xidmətdənkənar müvafiq mühit, daha dəqiq desək, mülki məşğuliyyət üçün hazırlamır [8]. Yəni, bu yanaşma ilə EBHQ-lərin mülki həyata adaptasiyası prosesi, onlar hələ xidmətdə olarkən başlamalıdır.

Qeyd edək ki, artıq dünyada qəbul olunmuş belə bir təcrübə var ki, hərbi təşkilatların özləri EBHQ-ləri işlə təmin etməkdə daha maraqlıdırlar. Çünki EBHQ-lər sistemin məsuliyyət və öhdəliklərini daha yaxşı başa düşür, eyni zamanda onlar heç bir mülki təşkilatda olmayan səviyyədə intizama malik olurlar. Lakin bütün EBHQ-lərin hərbi təşkilatlarda işlə təmin olunması mümkün deyil. Bu baxımdan, onların ən azından ölkə miqyasında (qeyd etdiyimiz kimi, bəzi ölkələrdə bu beynəlxalq xarakter daşıyır) işlə təminatı prosesinin asanlaşdırılmasında vahid məlumat bazasının olması xüsusi aktuallıq kəsb edir. Məsələn, EBHQ-lərin işlə təminatını asanlaşdırmaq üçün ABŞ-da hələ ötən əsrin 80-ci illərindən bir sıra hərbi təşkilatların dəstəyi ilə Pentaqonun nəzdində xüsusi bir idarə yaradılmışdır. Bu idarənin əməkdaşları hərbi və mülki sahələri əlaqələndirən proqram hazırlayıb təqdim etmişlər. Bu proqram əsasında həm iş arzusunda olan fərdlər müxtəlif biznes sektorunda mövcud olan vakansiyalar barədə məlumat əldə edir, həm də şirkətlər tələbləri üzrə namizədləri tapırlar. Bu işin təkmilləşdirilməsində həmin idarə ilə müxtəlif şirkətlərin, hökumət orqanları və özəl

müəssisələr arasında əməkdaşlığın xüsusi əhəmiyyəti vardır. ABŞ-da EBHQ-lərin işlə təminatı prosesinin sadələşdirilməsi istiqamətində görülən ən vacib işlərdən biri də özündə müxtəlif məzmunlu məlumatları əks etdirən kitabçaların hazırlanıb nəşr etdirilməsidir. Belə ki, həmin kitabçalarda EBHQ-lərin mülki həyata adaptasiyasında tövsiyələr, məşğulluqla bağlı sorğular, kompüter texnologiyalarından istifadə etməklə şəxsi məlumatların müxtəlif bazalara daxil edilməsi və s. məsələlər yer alır. Bu gün ABŞ-ın bütün hərbi hissələrinin kitabxanalarında həmin kitabçalara rast gəlinir. ABŞ-da belə bir təcrübə də var ki, hərbi qulluqçular ehtiyata buraxılarkən, onların hər biri barəsində "DD 214" adlı arayış-məruzə hazırlanır və ölkənin Milli Arxivinə verilir. Həmin arayış-məruzədə aşağıdakı məlumatlar öz əksini tapır [9]:

- xidmətə başladığı il;
- yaşayış yeri;
- sonuncu xidməti vəzifəsi;
- ehtiyata buraxıldığı zaman hərbi rütbəsi;
- hərbi xidmət müddəti;
- ehtiyata buraxılma səbəbi.

Fikrimizcə, həmin arayış-məruzə dolğun xarakter daşımır və nəzərə alsaq ki, Milli Arxiv bu informasiyanı açıq şəkildə paylaşmır, onda bu, işaxtaranlar və məşğulluq mərkəzləri üçün elə də əlçatan hesab olunmur. Lakin ABŞ Müdafiə Nazirliyi ilə "Əmək və EBHQ-ların məsələləri üzrə iş" mərkəzinin birgə həyata keçirdiyi "Adaptasiyaya dəstək proqramı" həm resurs, həm də imkanlar baxımından (məşğulluq mərkəzləri və EBHQ-lər üçün) daha effektiv mexanizm hesab olunur. ABŞ Ordusu hərbi qulluqçularının 90%-i hələ xidmətdə olduqları zaman bu proqramın imkanlarından yararlanırlar [10]. Müdafiə Departamentinin məlumatına əsasən ABŞ-da hər il təxminən 200,000 hərbi qulluqçu ehtiyata buraxılır. ABŞ Ordusundan EBHQ-lərin işlə təminatını asanlaşdırmaq məqsədilə dünyada 300-dən çox məşğulluğa dəstək mərkəzi fəaliyyət göstərir [10]. Ümumiyyətlə, ABŞ, EBHQ-lərin mülki həyata adaptasiyası prosesində ən çox proqram və mexanizmlərin mövcud olduğu ölkədir. Birləşmiş Krallıq və Şimali İrlandiya da EBHQ-lərin adaptasiyası istiqamətində ən uğurlu modellərdən hesab olunur. Qeyd edək ki, bu ölkədə hər il təxminən 25,000 hərbi qulluqçu ordu sıralarından ehtiyata buraxılır. Həmin EBHQ-lərin, demək olar ki, hamısına qismən, 50%-nə isə tam dəstək göstərilir. Belə dəstəyin əsasını hərbi qulluqçularla transformasiya təliminin keçirilməsi təşkil edir. Təlimlərin xərci Müdafiə Nazirliyi tərəfindən ödənilir. Təlimlərin müddəti hərbi qulluqçuların xidmət illərindən asılıdır. Belə ki, beş il xidmət etmiş hərbi qulluqçularla dörd, səkkiz il xidmət etmiş hərbi qulluqçularla beş, on iki il xidmət etmiş hərbi qulluqçularla altı, on altı il və daha çox xidmət etmiş hərbi qulluqçularla isə yeddi həftəlik kurslar təşkil edilir [2]. Oxşar yanaşmalar Fransa və Almaniyada tətbiq olunur. Avropanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, bu ölkələrdə hərbi qulluqçular ehtiyata buraxılmadan öncə özlərini mülki həyata hazırlayırlar. Bu hazırlıq üçün məsul qurum isə Müdafiə Nazirliyi hesab olunur. Şübhəsiz ki, maliyyə xərcləri dövlət tərəfindən qarşılanır.

Hərbi xidmətdə qazanılan təcrübə ehtiyata buraxılan şəxs üçün mülki həyatda birmənalı olaraq uğur gətirməyə bilər [4]. Yəni, qeyd etmək vacibdir ki, hər bir şəxsin hərbi xidmət təcrübəsi unikal xarakter daşıyır. Fərdin ixtisası, xidmətin müxtəlif mərhələlərində göstəriciləri, vəzifədə irəliləmə imkanları, xidmət yerinin çətinlik dərəcəsi, ailə vəziyyəti, komandirləri ilə münasibəti, fərdi hazırlığı, fiziki və əqli sağlamlığı, xidmət müddəti də daxil olmaqla, onun karyerasına bir çox faktorlar təsir göstərir [3]. Məsələn, ömrünün 30 ilini hərbiyə həsr etmiş bir şəxs hər hansı bir şirkət üçün praktiki olaraq heç bir əhəmiyyət daşımaya və yaxud əksinə cəmi 5 il xidmət etmiş hərbçi həmin şirkət üçün zəruri hesab edilə bilər. Ona görə də mülki həyata adaptasiya prosesində hərbi xidmətin müddəti deyil, EBHQ-nin qazanmış olduğu xüsusiyyətlər əhəmiyyət kəsb edir. Bu baxımdan, bəzi spesifik xüsusiyyətlərə malik EBHQ-lər işəgötürənlər üçün daha cəlbedici olurlar. Belə spesifik xüsusiyyətlər nələr ola bilər? Nümunə üçün demək olar, EBHQ bir neçə əlavə dil bilir, xüsusi idarəçilik qabiliyyətinə malikdir (və ya idarəetmə üzrə xüsusi kursları bitirib), elmi dərəcəsi (elmi adı), idman üzrə dərəcəsi və s. var. Qeyd edək ki, bu siyahını kifayət qədər genişləndirmək olar. Nəzərə almaq

lazımdır ki, ümumi xüsusiyyətlər üzrə EBHQ-lərin sayı çox olsa da, spesifik xüsusiyyətlərə malik olanların sayı məhduddur. Bu da iş axtaran EBHQ-lərin və işəgötürmə mərkəzlərinin və şirkətlərin işini kifayət qədər yüngülləşdirər. Bununla yanaşı, hərbi xidmətdə olanların öz üzərlərində işləməsinə stimul yarada, onların motivasiyasını artıra bilər.

**Azərbaycan Respublikası Silahlı Qüvvələrindən ehtiyata buraxılan hərbi qulluqçuların sosial adaptasiyasının məlumat bazası**

| Adı, soyadı, ata adı və təvəllüdü | Təhsili | Elmi dərəcə və elmi adı | İxtisası | Bildiyi xarici dil | Xidmət (iş) təcrübəsi (il) | Açar sözlə axtar |
|---|---|---|---|---|---|---|
| ▼ | ▼ | ▼ | ▼ | ▼ | ▼ | ▼ |
| Akif Məmmədov Ramiz 18.07.1984 | Ali 2001–2005 | Fəlsəfə doktoru | Milli təhlükəsizlik | İngilis | 10 il | Qara kəmər |
| | Orta 1991–2001 | Elmlər doktoru | Mühəndis | Rus | 20 il | Yüngül atletika |
| | Akademik 2014–2018 | Dosent | İnformasiya təhlükəsizliyi | Urdu | və s. | Hərbi həkim |
| | SADMİAK 2015 | Professor | Motoatıcı | İtaliyan | | Robototexnika |
| | və s. | Akademiyanın müxbir üzvü | İnformasiya təhlükəsizliyi | Koreya | | Süni intellekt |
| | | Akademik | Energetika mühəndisi | Fars | | və s. |
| | | və s. | Zirehli və tırtıllı texnika mühəndisi | Fransız | | |
| | | | İstilik texnikası mühəndisi | Alman | | |
| | | | Optotexnika | Çin | | |
| | | | Silah və silah sistemlərinin istehsalı texnologiyası | Yapon | | |
| | | | Pirotexniki vasitələr texnologiyası | Ərəb | | |
| | | | Xüsusi təyinatlı texnika və sistemlər | Erməni | | |
| | | | və s. | və s. | | |
| | | | | | | **Axtar** |

| Yeni ehtiyata buraxılan hərbi qulluqçu haqqında məlumatın daxil edilməsi | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Adı, soyadı, ata adı və təvəllüdü** | **Təhsili** | **Elmi dərəcə və elmi adı** | **İxtisası** | **Bildiyi xarici dil** | **Xidmət (iş) təcrübəsi (il)** | **Açar sözlə axtar** |
| ▼ | ▼ | ▼ | ▼ | ▼ | ▼ | ▼ |
| Yenisini yarat | Yenisini yarat | Yenisini yarat | Yenisini yarat | Yenisini yarat | Yenisini yarat | |
| | | | | | | Çıxış |

**Şəkil. Azərbaycan Respublikası Silahlı Qüvvələrindən ehtiyata buraxılan hərbi qulluqçuların sosial adaptasiyasının məlumat bazası (variant)**

Azərbaycan Respublikasında da EBHQ-lərin sayının kifayət qədər olduğunu və cəmiyyətdə xüsusi bir qrup təşkil etdiyini nəzərə alsaq, aparıcı ölkələrin təcrübəsi əsasında Müdafiə Nazirliyinin nəzdində bir idarənin yaradılması və orada bir sıra proqramların hazırlanması, ümumilikdə, EBHQ-lərin sosial adaptasiya prosesinin asanlaşdırılmasına öz töhfəsini verə bilər. İlkin mərhələdə EBHQ-lərin xarakterik xüsusiyyətlərini özündə əks etdirən məlumat bazasının və bunun əsasında proqram təminatının hazırlanması məqsədəuyğun hesab edilir. Bu baxımdan, şəkildə qeyd olunan parametrlər əsasında Azərbaycan Respublikası Silahlı Qüvvələrindən EBHQ-lərin məlumat bazasının yaradılması təklif olunur.

## Nəticə

Beləliklə, məqalədə nəzəri müddəaları təqdim edilən proqram təminatı EBHQ-lərin spesifik xüsusiyyət və keyfiyyətlərinin öyrənilməsində və buna uyğun işlə təmin olunmasında mühüm rol oynayaraq, çox ciddi bir problemin həllinə öz töhfəsini verə bilər.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. U.S. Army Retired Soldier Handbook 2020: [Electronic resource] / – October 2019. – 80 p. URL: https://bit.ly/3HgjxEV.
2. Terziev, V., Dimitrova, S. A new view on social adaptation of the military, discharged from military service in Bulgaria // European Scientific Journal, – November, 2014. vol.2, – p. 81-98.
3. Blackburn, D. Transitioning from Military to Civilian Life: Examining the Final Step in a Military Career // Canadian Military Journal, – Autumn 2016. vol. 16, No.4, – p. 53-61.
4. Chertushkina, T.A., Shmeleva, N.B., Shabanova, O.V., Shmeleva, M.V. Socio-Professional Adaptation of the Military Personnel Transferred to the Reserve (Research Made in the Ulyanovsk Region, Russia): [Electronic resource] // Review of European Studies, – July 2015. No7(11). URL: DOI:10.5539/res.v7n11p132.
5. McDermott, J. Old soldiers never die: they adapt their military skills and become successful civilians. what factors contribute to the successful transition of army veterans to civilian life and work? / A Doctoral thesis submitted in partial fulfilment of the requirements for the award of Doctor of Social Sciences / – Leicester, – 2007. – 294 p.
6. Pedersen, C. L., Wieser, C.. Veteran Transition from Military to Civilian Life: Towards a Sociocultural Framework for Social Support // Scandinavian Journal of Military Studies, – 2021. No4(1), – p. 158-171.
7. İbrahimov, R. Tərxis olunan hərbi qulluqçuların sosial adaptasiya problemləri // Hərbi bilik, – 2021. №1, – s. 33-45.
8. Close, L. Military Veterans: Transiting to Civilian Life: [Electronic resource] / – March 6, 2021. URL: https://bit.ly/3hg0EY6.

9. Sherman, F. How to Find an Ex-Military Discharge Status Jobs: [Electronic resource] / – June 29, 2018. URL: https://bit.ly/3vhWHKR.
10. Transitioning Servicemembers: Information on Military Employment Assistance Centers: [Electronic resource] / – June 17, 2019. URL: https://bit.ly/3pgTlnu.

**Аннотация**
**Создание базы данных о усвоенных военнослужащих как субъект процесса социальной адаптации**
**Рашад Ибрагимов, Ариф Гасанов**

В статье показаны характеристики постслужебного статуса военнослужащего. Обсуждаются его трудности в процессе адаптации к гражданской жизни, а также его преимущества и специфические качества. Предлагается создать базу данных военнослужащих, уволенных из Вооруженных Сил Азербайджанской Республики, для чего приведены теоретические положения программного обеспечения.
**Ключевые слова:** социальная адаптация, резервисты, интеграция, база данных, программное обеспечение.

**Abstract**
**Creation of the database of discharged military as a subject of the process of social adaptation**
**Rashad Ibrahimov, Arif Hasanov**

The article describes the characteristics of a serviceman's post-service status. Its difficulties in the process of adaptation to civilian life, as well as its advantages and specific qualities are discussed. it has been proposed to create a database of discharged military from the Armed Forces of the Republic of Azerbaijan, for which the theoretical provisions of the software have been provided.
**Keywords:** social adaptation, discharged servicemen, integration, database, software.

*Məqalə redaksiyaya daxil olmuşdur: 24.01.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 27.01.2022*
*Çapa qəbul edilmişdir: 14.03.2022*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№1 (8)/2022, səh. 14-23**
***HƏRBİ-XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 355/359

# ALBANİYADA İSTEHKAM QURĞULARI

**tar.e.d., professor Nurulla Əliyev**
*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
E-mail: nurullaliyev@mail.ru

***Xülasə.*** Təqdim olunan məqalədə zəngin mənbələr əsasında Albaniya dövlətinin mövcudluğu dövründə qalaların və hərbi istehkamların tikintisi, təkamülü, o cümlədən onların bölgə üçün geosiyasi əhəmiyyəti göstərilir, həmçinin müharibə aparılan dövrdə Albaniya ərazisində tikilmiş süni istehkamların, hərbi nöqteyi-nəzərdən düşünülmüş və yerli relyefə uyğun müdafiə sisteminin inkişafı məsələləri araşdırılır. Orduda döyüş zamanı müxtəlif növ taktiki fəndlərin istifadəsi prosesi təhlil olunur.

**Açar sözlər:** hərb işi və hərb sənəti, silah və mühafizə-təchizat, döyüş taktikası, qalalar və istehkam tikintiləri, döyüş silahı və müdafiə vasitələri.

## Giriş

Albaniyada istehkam qurğuları bir neçə əsr ərzində şimaldan gələn təhlükənin mövcud olması Xəzərin qərb sahillərində, Qafqaz Albaniyasında güclü istehkamların yaranmasına səbəb oldu – Beşbarmaq, Gilgilçay, Dərbənd sədləri. Onlar hələ bizim eradan əvvəl kaspilər, sonra isə Alban dövləti tərəfindən yaradılmışdır [1, s.181–191].

Lakin burada möhtəşəm istehkamlar sistemi V–VI əsrlərdə Sasani şahları II Yezdəgird (438–457), Peroz (459–484), Kavad (488–531), I Xosrovun (531–579) səyləri ilə yaradılmışdır.

Müdafiə sistemində ən cənub istehkamlar olan Beşbarmaq səddi Beşbarmaq dağının ətəyindən dənizə qədər 1,75 km məsafədə, bir-birindən 220 m aralı inşa olunmuş gil sədlərdən ibarət idi (Şəkil 1). Dağın ətəyində bürcləri olan daş qala tikilmişdir [2, s.111].



**Şəkil 1. Beşbarmaq dağı ilə dəniz arasında olan dar keçid**

Şimal müdafiə sisteminin ikinci xətti Beşbarmaq səddindən 23 km şimalda yerləşirdi. Bu, ümumi uzunluğu 50 km olan Gilgilçay (Şabran) səddi idi. Sədd əlavə müdafiə elementinə çevrilən Gilgilçay çayının cənub sahilində inşa olunmuşdur. Sədd bilavasitə Xəzər dənizi sahilindən başlayır və Böyük Qafqazın cənub-şərq yamacını kəsirdi. Dənizdən Bakı–Dəvəçi yoluna qədər olan hissədə bu möhtəşəm, 300-ə yaxın bürcü olan tikilinin fraqmentləri Əlixanlı kəndi yaxınlığındakı şəhərciyin şimal qərbində, Eynibulaq kəndi yaxınlığında qalmışdır [3, s.414; 4, s.441–465].

Gilgilçay səddi Məşriv rayonunda dağın zirvəsində Çıraqqala qalası ilə tamamlanırdı (Şəkil 2). Dəniz səviyyəsindən 1600 m hündürlükdə tikilmişdir. Hər tərəfdən hündür və sıldırımlı yamaclarla əhatələnən Çıraqqala demək olar ki, alınmaz idi. Qalanın şimal-şərq tərəfində divar yox idi, çünki bu tərəf sıldırımlı yamaca açılırdı. Qalanın divarlarının qalınlığı 5 m-ə çatırdı. Qalada 17 bürc olub, qayanın təpəsində olan bir bürcün hündürlüyü 13 m idi [5, s. 8–10].



**Şəkil 2. Çıraqqala. Düzənlikdən görünüş**

Qalanın adından göründüyü kimi (Çıraqqala), onun əsas təyinatı başqa qalalarla yandırılan işıq siqnallarının qəbulu və ötürülməsi idi. İndi də açıq havadan da qaladan Dərbənd və Beşbarmaq dağı görsənir. Dərbənd qalasında yandırılmış işıq siqnalını görən Çıraqqalanın 10–15 nəfərlik heyəti yuxarı meydançada tonqal qalamaqla siqnalı Beşbarmaq səddinə, oradan isə Şamaxı, Bakı qalalarına – düz Naxçıvan və Cənubi Azərbaycan qalalarına ötürürdü [6, s.108].

Çoxsaylı düşmənin hücumu zamanı belə xəbərdarlıq sistemi vaxt qazanmağa, qoşunları döyüş vəziyyətinə gətirməyə, onları müəyyən rayonda cəmləşdirməyə və düşmənə müqavimət göstərməyə imkan verirdi.

Xəzər dənizinin qərb sahillərində ən şimalda yerləşən və hərbi-strateji baxımdan ən vacibi Dərbənd, müdafiə səddi idi (Şəkil 3).




**Şəkil 3. Dərbənd. XVI əsrə aid qravüra**

Dərbənd (“Dərbənd” – “dar keçid”) özünün unikal coğrafi mövqeyinə görə Azərbaycanda yüzilliklər ərzində baş vermiş hərbi-siyasi hadisələrdə vacib rol oynamışdır.

İlk tikililəri e.ə. VIII–VII əsrlərdə yaranan Dərbənd keçidinə Roma və Parfiya, Sasanilər və Bizans, Ərəb Xilafəti və Xəzər xaqanlığı, Səlcuq dövləti və Qızıl orda, Səfəvilər və Osmanlı imperiyası və nəhayət, I Pyotrdan başlayaraq Rusiya imperiyası göz tikmişlər.

Təkcə Azərbaycanın deyil, ümumdünya tarixində oynadığı əhəmiyyətli rolu Dərbənd Xəzərin qərb sahilində tutduğu mövqeyə borcludur. Bu mövqe cənubdan Şimali Qafqaza və şimaldan Cənubi Qafqaza və Ön Asiyaya hücuma keçməyə imkan verirdi [7, s.3-8].

Dərbənd keçidi – eni 3,5 km olan dənizlə dağlar arasında dar dənizboyu düzənlikdir – Cənub-Şərqi Avropadan Ön Asiyaya münasib yeganə yoldur.

Bu ərazini qədim yunan və romalılar Kaspi və ya Alban darvazaları, alban erkən orta əsr müəllifləri onları “Çara darvazası” (vilayətin adı ilə) “Hun darvazaları”, bəzən “Dəniz darvazaları” və ya “Darubandi”, bizanslılar “Tzor istehkamları”, Sasanilərin – “Dərbənd”, suriyalılar “Toraya darvazaları”, ərəblər “Bab-əl-Əbvab” (darvazaların darvazası), Bab əl-xədid (dəmir darvazalar), monqollar Kaxulqa (darvaza), türklər Dəmir Qapı, ruslar Dərbənd və ya “Dəmir qapı” adlandırırdılar. Orta şərq ədəbiyyatında Dərbəndin inşası və burada möhkəm istehkamların qurulması Makedoniyalı İsgəndərin adı ilə bağlıdır, lakin tarixi mənbələr bunu təsdiqləmir [8, s.14, s.18–22, s.25; 9, s.34–39, s.217].

IV əsrin sonlarında Hun tayfalarının qismində yeni qüvvənin peyda olması Dərbənd keçidinin hərbi-strateji əhəmiyyətini daha da artırdı [10, s.36–37]. Bu amili nəzərə alaraq, sasanilər keçid üzərində nəzarəti öz əllərində saxlamağa çalışırdılar.

Dərbənd müdafiə kompleksi üç hissədən ibarət idi: hər birinin uzunluğu 3,5 km olan Şimal və Cənub divarları; yüksək təpədə yerləşən Narınqala (Şəkil 4); uzunluğu 40 km olan və Böyük Qafqaz dağlarına tərəf uzanan Dağbarı (Şəkil 5).



**Şəkil 4. Dərbəndin "Narın"qalası. Müasir foto**



**Şəkil 5. Dağbarının bir hissəsi. Müasir foto**

Dənizin dərinliklərinə doğru uzanan divarlar arasındakı məsafə Narınqala yaxınlığında 350 m, dəniz sahilində isə 450 m idi. Hündürlüyü 18m olan divarların qalınlığı 4 m-ə çatırdı. Divar xətləri boyunca 73 bürc inşa olunmuşdur ki, onlardan 46-sı şimal divarda idi.

Dərbənd səddinin divarlarının dənizin dərinliklərinə qədər uzanması düşmənə ləpə döyəndə keçməyə imkan vermirdi. Dəniz divarları arasında liman inşa olunmuşdur; limana icazəsiz giriş-çıxış mümkün deyildi, çünki limanın girişi zəncirlə bağlanırdı [11, s.138–139].

Hündürlüyü 25 m olan Narınqala perimetri 700 m-dən artıq olan çoxbucaqlı fiquru xatırladırdı. Narınqalanın şimal və şərq divarları sıldırımlı yamacları olan təpənin kənarından keçdiyindən bu istiqamətdən hücum mümkün deyildi. Cənub-şərq bürcü Narınqalanı cənub tərəfdən qoruyurdu. Narınqalanın cənub-şərq küncündən dərənin qırağı ilə Dağbarı gedirdi. Dağbarı strateji baxımdan vacib olan məntəqələrdə fortlarla möhkəmləndirilmişdir. Düzbucaq və ya kvadrat şəklində olan fortların künclərində dairəvi bürclər var idi. Divarın müdafiə xəttində, həmçinin şərqə doğru, gözlənilən hücum istiqamətinə baxan çıxıntılı yarımfortlar mövcud idi [8, s.76, s.100–102].

Fortlar və yarımfortları olan Dağbarı Dərbəndin qurğuları ilə birlikdə vahid müdafiə kompleksi təşkil edirdi. Bu kompleks Xəzəryanı yolu, eləcə də yandan keçən yolları bağlama, vilayətin daxili kommunikasiyalarını nəzarət altında saxlamağa imkan verirdi. Bu dövrdə Xəzər dənizində ən böyük liman və yeganə möhkəmləndirilmiş şəhər olduğundan alban hökmdarlarının və sasanilərin Qafqazda əsas hərbi-siyasi dayağı idi. Burada daima Sasani qarnizonu yerləşirdi (təkcə atlıların sayı 10 minə çatırdı) və belə iri qarnizon Cənubi Qafqazdakı heç bir marzbanda yox idi.

Albaniyanın şimal-qərbindəki dağ yollarını sasanilər və bəlkə də onlardan əvvəl inşa olunmuş Zaqatala daş səddi qoruyurdu [12, s.90].




**Şəkil 6. Şimal müdafiə istehkamları (D.Axundova görə)**

Zaqatalada müdafiə divarlarının qalıqları 1,5 m, hündürlüyü 5 m, bürclərin diametri 12 m-dən artıq idi [6, s.109]. Şimal istehkamların region üçün geosiyasi əhəmiyyətini ərəb müəllifləri də qeyd edirlər (Şəkil 6). Belə ki, X əsr ərəb müəllifi Məsudi yazır ki, qalaların inşası və burada qarnizonların yerləşdirilməsi Sasani çarlarına Şimali Qafqaz köçəri tayfaların – xəzərlərin, albanların, savirlərin, türklərin və s. hücumlarına tab gətirməyə imkan verdi [13, s.212–213].

Beləliklə, Xəzəryanı müdafiə qurğuları dərineşelonlu müdafiənin vahid sistemi idi. Sistem hərbi baxımdan tam düşünülmüş və relyefə tam uyğunlaşdırılmışdır.

Albaniyanın şimal-qərbindəki müdafiə qurğuları sisteminə Qəbələ, Gündüz, Gəldək, Bakı, Xaçmaz, Bum və s. qalalar daxil idi [14, s.10–16]. Belə ki, Talıstan kəndi yaxınlığında meşəlik ərazidə inşa olunmuş Cavanşirqalası öz etibarlılığı ilə seçilirdi [6, s.111].

Şimali Qafqazdan Cənubi Qafqaza daha bir yol Dəryal keçidindən (Daralan) keçirdi. Bu sədd sasanilərin Bizansa siyasi təsirinin vasitəsi idi. Bizans sasanilərə qızıl ödəyirdi ki, onlar keçidi mühafizə etsinlər Cənubi Qafqaz və Fəratdakı Bizans torpaqlarına hunların yürüşlərinin qarşısını alsınlar. Bəhram Gurun (422–438) hakimiyyəti dövründə 422-ci ildə sasanilərlə Bizans arasında müqavilə imzalandı və ona əsasən Dəryal dərəsinin mühafizəsi üçün Bizans hər il sasanilərə müəyyən məbləğ ödəməli idi.

Şimal xalqları qısa müddətə dərəni əllərinə keçirsələr də, uzunmüddətli müharibə nəticəsində 508-ci ildə şah Kavad Dəryal dərəsində möhkəmlənə bildi və bu vaxtdan etibarən burada daimi qarnizon yerləşdirildi [10, s.58].

Cənubi Azərbaycanın Ərdəbil, Təbriz, Marağa, Canaqar, İsgəndər səddi və b. şəhər-qalalarında Sasani qarnizonları yerləşdirilmiş və bu qalaların möhkəm divarları var idi [6, s.100].

Bizim eranın ilk əsrlərində Albaniyada ən yayılmış istehkam növü kvadratformalı qəsr və şəhər fortifikasiyası idi. Üstəlik bu dövrdə ərazinin relyefi həlledici rol oynamırdı, çünki böyük olmayan süni istehkamlarda müdafiə sistemi təkmilləşirdi (Sarıqala, Bərdə). Eyni zamanda böyük istehkamlarda ərazinin təbii relyefi müdafiənin təşkilində əsas rol oynayırdı (Beyləqan, Şəmkir, Şatal, V əsrdə Gəncə) [2, s.109–110].

VII əsrin birinci yarısında Albaniyanın şimal hüdudlarında vəziyyət yenə dəyişdi.

Belə ki, bu dövrdə Şimali Qafqaz Qərbi-Türk xaqanlığının tərkibinə daxil oldu. Bu güclü dövlət Azov dənizindən Tiyan-Şan dağlarının şərq yamaclarına qədər olan əraziləri əhatə edirdi. Bu dövlət güclü orduya malik idi. Geniş inkişaf etmiş metalişləmə böyük sayda müxtəlif silah növləri, ilk növbədə yaraqlar istehsal etməyə imkan vermişdir.



**Şəkil 7. Ağırsilahlanmış türk atlısının həmləsi. Qayaüstü təsvir Sibir, VII əsr**

Türklər yaraq geymiş ağır atlı hissələri yaratdılar – bu hissələr qoşunun ən etibarlı hissəsi sayılır və türklərin qurddan (canavardan) törəməsi əsatirinə əsasən bu hissələrə – “fuli” (çin) və ya “buri” (türk) – “qurd” deyilirdi. Ağıratlı süvarilər mürəkkəb yay, nizə, qılınc və palaşdan ibarət idi (Şəkil 7). Qoşunların tərkibinə yüngülsilahlanmış atlı oxçular da daxil idilər ki, bu dəstələr imperiyanın tabe edilmiş xalqlarından toplanırdı. Yüngülsilahlanmış düşmənlə toqquşmada türklərin ağır atlıları üstünlüklərə malik idi (Şəkil 8). Atlılar pərakəndə kütlə halında deyil, yaxşı təşkil olunmuş atlı cərgələr şəklində hücum edirdi. Bu atlı dəstələr qalalara hücum üçün yaramırdı, ona görə də türklər qalalardan yan keçib ölkənin dərinliklərinə gedirdilər [15].



**Şəkil 8. Ağırsilahlanmış türk atlıları; döyüşçülərin atlarına da yaraqlar geyindirilmişdir. Qayaüstü şəkil. Sibir, VI–VII əsrlər**

VII əsrin birinci yarısında imperator İrakli türklərlə sasanilərə qarşı yönəlmiş müqavilə imzaladı.

“Şimal çarı”nın qardaşı Cəbuxaqan 40 minlik atlı qoşunun başında Dərbənd keçidini keçərək Kür çayına qədər irəlilədi. Şimal istehkamlarını qoruyan alban qoşunu yalnız yay və mizraqlarla silahlanmışdır yaraqlar və hətta qalxanlar, demək olar ki, yox idi. Dərbəndin alınmasında əsas yük istehkamların alınmasında böyük təcrübəyə malik xəzər dəstələrinin üzərinə düşürdü çünki türklər nə Çində, nə də Mərkəzi Asiyada istehkamlarla qorunan şəhərlərin mühasirəsində elə də nailiyyət əldə etməmişlər.

İveriyanı Qara dənizə qədər keçən türklər Bizans imperatorunun iqamətgahına çatdılar.

626-cı ildə “şimal çarı”nın qardaşı oğlu Şadenin rəhbərlik etdiyi digər türk dəstəsi bütün düzən Albaniyanı tutdu və İveriyanı keçərək Araz çayında bizanslılarla birləşdi. 628-ci ildə türklər Tbilisi qalasını ələ keçirdilər [16, s.254]. 629-cu ildə Şade Albaniyaya yeni yürüş etdi və hər iki paytaxtı – Qəbələ və Partavı (Bərdəni) tutdu. Lakin VII əsrin 30-cu illərində Cəbuxaqanın hakimiyyəti sona çatdığından Şade öz qoşunlarını Albaniyadan çıxarıb şimala qayıtmağa məcbur oldu [17, s.199].

VII əsrin 30-cu illərindən başlayaraq Albaniya dövlətinin güclənməsi müşayiət olundu. Əsasən, bu hökmdar Cavanşirin (636–680-ci illər) hakimiyyəti ilə bağlıdır. Əvvəlcə ordu komandanı kimi o, qoşunları möhkəmlətdi, sonra isə hökmdar kimi ölkənin siyasi, iqtisadi və mədəni dirçəlişini təmin etdi. Belə ki, Albaniya hökmdarı VarazQriqor özünün ikinci oğlu Cavanşiri Mehranilərin Aran qoşunlarının komandanı təyin etdi. Bu dövrdə Sasani şahənşahı III Yezdəgird (632–651-ci illər) bir sıra daxili və xarici təhlükələrlə üzləşdiyindən ayrı-ayrı vassal vilayətlərin güclənməsinə barmaqarası baxırdı.

636–642-ci illərdə Cavanşirin rəhbərlik etdiyi alban qoşunları Sasani Ordusunun tərkibində idi (Şəkil 9).



**Şəkil 9. Alban çarı Cavanşir. Tunc buxurdan. VII əsr. Naxçıvanda tapılıb.**

Döyüşlərdə Cavanşir sərkərdəlik qabiliyyətini nümayiş etdirdi. VIII əsr Alban tarixçisi Moisey Kalankatunlunun yazdığına görə 636-cı ildə Kadisiya yaxınlığındakı "Ölü sular" döyüşündə Cavanşir xüsusi qəhrəmanlıq göstərmiş və dəstəsi ilə ərəb qoşunlarının üzərinə şığıyaraq "iki düşməni yerə sərmiş" və özü də üç ağır yara almışdır. Şahənşah Cavanşiri təltif etdi: "ona bayraq və güclü şeypurlar, iki qızıl mizraq və iki qızıl qalxan verdi ki, hər zaman onun qarşısında daşısınlar... Ona mirvarilərlə bəzədilmiş qızıl kəmər və qızıl dəstəyi olan qılınc verdi, qollarına bazubənd, başına isə gözəl tac taxdı. O, həmçinin mirvarilərlə bəzədilmiş qayışlar verdi və boynuna çoxlu mirvari sapları asdı" [18, s.98].

Коэффициент, который учитывает наличие подготовленного боевого расчета – отношение количества подготовленных экипажей, закрепленных за машиной, к количеству боеготовых машин:

$$K_P = \frac{N_Ф}{N_М},\ N_Ф \le N_М, \qquad (6)$$

где $N_Ф$ – количество подготовленных экипажей;

$N_М$ – количество боеготовых машин.

Коэффициент, который учитывает наличие боекомплекта – отношение количества фактически имеющихся боекомплектов к количеству боекомплектов по штату:

$$K_{Бк} = \frac{N_{БкФ}}{N_{БкШ}},\ N_{БкФ} \le N_{БкШ}, \qquad (7)$$

где $N_{БкФ}$ – количество фактически имеющихся боекомплектов;

$N_М$ – количество боекомплектов по штату.

Коэффициент, который учитывает наличие средств обеспечения – отношение количества фактически имеющихся средств обеспечения к количеству средств обеспечения по штату:

$$K_{Об} = \frac{N_{ОбФ}}{N_{ОбШ}},\ N_{ОбФ} \le N_{ОбШ}, \qquad (8)$$

где $N_{ОбФ}$ – количество фактически имеющихся средств обеспечения;

$N_{ОбШ}$ – количество средств обеспечения по штату.

Коэффициент, укомплектованности запасными частями и эксплуатационной документацией:

$$K_{Ук} = \frac{N_{УзчФ}}{N_{УзчД}},\ N_{УзчФ} \le N_{УзчД}, \qquad (9)$$

где $N_{УзчФ}$ – количество фактически имеющихся комплектов запасных частей;

$N_{УзчД}$ – достаточное количество комплектов запасных частей.

Средний расход запасных частей $n_{ср}$ одного наименования в группе машин за период t [20]:

$$n_{СР} = \frac{N \cdot n \cdot t_{об}}{t_{СР}}, \qquad (10)$$

где $N$ – количество образцов в группе;

$n$ – количество элементов данного типа в одном образце;

$t_{об}$ – время (период обеспечения), с;

$t_{СР}$ – средний ресурс элемента, с.

$$t_{ср} = \overline{T} \cdot K_e, \qquad (11)$$

где $\overline{T}$ – средний ресурс элемента с учетом условий эксплуатации, с;

$K_e$ – коэффициент режима эксплуатации.

Количество запасных частей, достаточное для обеспечения группы машин с заданной вероятностью α на период t, может быть определено по формуле [6]:

$$n_\alpha = n_{СР} - 1 + U_\alpha \cdot \sqrt{n_{СР}}, \qquad (12)$$

где $U_\alpha$ – квантиль нормального распределения, который отвечает вероятности α.

Таким образом, посредством зависимостей (1–12) можно определить комплексный показатель боеготовности ВВСТ $K_{БГ}$ воинской части (подразделения).

Но нужно учесть тот факт, что даже при достаточно высоком значении множителей зависимости (2), например, $K_{ОГ} = K_р = K_{Бк} = K_{Об} = K_{Ук} = 0{,}98$, показатель боеготовности техники $K_{БГ}$ ВВСТ воинской части (подразделения) $K_{БГ} \approx 0{,}9$.

Определив показатели, необходимых для заданного образца ВВСТ свойств (Рисунок 2), по формуле (1), с учетом условий функционирования системы вооружения и условий ее применения (Рисунок 1), получим обобщенный коэффициент эффективности боевого применения ВВСТ.

## Выводы

Современные разработки ВВСТ нацелены на поиск технических и технологических преимуществ, призванных повысить эффективность применения перспективных систем вооружения.

Показатели боевой эффективности применения ВВСТ задаются в техническом задании на разработку боевых средств и являются основой при их проектировании, уточняются в

процессе испытаний и входят в состав основных тактико-технических характеристик образцов, принятых на вооружение.

Анализ показателей качества ВВСТ показывает, что выбор (назначение) их численных значений представляет собой сложную задачу. Указанная сложность обусловлена, прежде всего, большим количеством, разнообразием и противоречивостью отдельных показателей качества.

На базе частных показателей эффективности применения (качества) осуществляется формирование рационального типажа ВВСТ, а по конкретным образцам определяются оптимальные ТТХ и формируется тактико-техническое или техническое задание на разработку, содержащее основные тактико-технические требования к образцам.

Умение принять правильное решение по уточнению требований к ВВСТ является основным условием успешного проектирования новых образцов. Для этого необходимо тщательное изучение существующих образцов оружия, применение современных методов теоретического и экспериментального исследования всех подлежащих решению вопросов и глубокое изучение условий боевого применения ВВСТ.

Предложенная систематизация свойств образцов вооружения, военной и специальной техники (Рисунок 1, 2), позволяет наметить пути получения зависимостей для оценки показателей эффективности боевого применения ВВСТ.

## Список использованной литературы

1. Буренок, В.М. Концептуальный тупик // Вооружение и экономика, №3 (49), – 2019. – с.4-10.
2. Мурог, И.А., Окольников В.В. Концепция формирования требований к военной автомобильной технике // Наука ЮУрГУ: материалы 66-й научной конференции, – Челябинск: Издательский центр ЮУрГУ, – 2014. – с.1392-1400.
3. Абдурахимов, А.А., Левандович, А.В., Баландин, В.Н. Направления совершенствования научно-методического аппарата обоснования тактико-технических требований к группировкам малых космических аппаратов // ИНФОРМАЦИЯ и КОСМОС №3. – 2016. – с.153-160.
4. Чепков, І.Б. Проблеми технічного оснащення Збройних Сил України та шляхи їх розв'язання в сучасних умовах / І.Б.Чепков, І.В.Борохвостов, В.К.Борохвостов [та ін.] // Наука і оборона, – 2014. – N3. – с.43–50.
5. Ткачук, М.А. Проблеми наукового супроводу розробки озброєння та військової техніки на сучасному етапі / М.А.Ткачук, А.П.Марченко, О.В.Хлань [та ін.] // Перспективи розвитку озброєння та військової техніки сухопутних військ. – Львів: Національна академія Сухопутних військ, – 2018. – с. 9.
6. Луцишин, Г. Особливості сучасних збройних конфліктів в умовах глобалізації // Українська національна ідея: реалії та перспективи розвитку, – 2014. в. 26, – с. 128-132.
7. Харченко, В.С. Теорія надійності та живучості елементів і систем літальних комплексів / В.С.Харченко, А.П.Батуков, І.В.Лисенко. – Харков: ХВУ, – 1997. – 403 с.
8. Технические основы эффективности ракетных систем / Москва: Машиностроение, – 1990. – 254 с.
9. Чабаненко, П.П. Закономірності та особливості оцінювання ефективності систем у бойових діях за ймовірнісними моделями // Наука і оборона, – 2016. – в.4, – с.16-22.
10. Надежность и эффективность в технике. Справочник в 10 т. Т.1. Методология. Организация. Терминология / Москва: Машиностроение, – 1986. – 224 с.
11. Демидов, Б.А. Методы военно-научных исследований / Б.А.Демидов. – Харков: МО, – 1990. – 673 с.
12. Буренок, В.М. Теория вооружения / В.М.Буренок, В.М.Ляпунов, В.И.Мудров – Москва: 46 ЦНИИ МО, – 2002. – 234 с.

13. Сеидалиев, Ф.С. О возможностях Азербайджанской республики по производству, модернизации и закупке новых образцов вооружения и военной техники // Прикладные аспекты научной деятельности в области обороны и безопасности государства. Тезисы докладов Международной военно-научной конференции. – Минск: – 12 июня, – 2019, – с.12.

14. Теория и конструкция танка / Под общ. ред. П.П.Исакова. – Москва: Машиностроение, – т. 1. – 1982. – 287 с.

15. Большая политехническая энциклопедия / Авт.-сост. В.Д.Рязанцев. – Москва: Мир и образование, – 2011. – 704 с.

16. Иванов, В.А. Устройство и эксплуатация артиллерийского вооружения / В.А.Иванов, Ю.Б.Горовой – Тамбов: Изд-во Тамб. гос. техн. ун-та. – 2005. – 260 с.

17. Военный энциклопедический словарь / – Москва: ВИ, – 1986. – 861 с.

18. Ковтун, А.В. Обґрунтування залежності для визначення показника бойової готовності військової техніки // Зб. наук. праць. – Харків: НА НГ України, – 2014. №1, – с. 63-66.

19. ДСТУ 2860-94 Надійність техніки. Терміни та визначення. – Киев: Держстандарт України, – 1994. – 36 с.

20. Анилович, В.Я. Надежность машин в задачах и примерах / В.Я.Анилович, А.С.Гринченко, В.Л.Литвиненко. – Харков: Око, – 2001. – 319 с.

## Xülasə

**Silahların, hərbi və xüsusi texnikaların xüsusiyyətlərinin sistemləşdirilməsi**

**Anatoliy Kovtun, Vladimir Tabunenko**

Silah, hərbi və xüsusi texnika sahəsində müasir inkişaf qabaqcıl silah sistemlərindən istifadənin səmərəliliyini artırmaq üçün nəzərdə tutulmuş, yeni texniki metodların və texnoloji üstünlüklərin axtarışına və inkişafına yönəldilmişdir. Silahların və hərbi texnikanın döyüş effektivliyinin göstəriciləri döyüş silahlarının hazırlanması üzrə texniki tapşırığa əsasən müəyyən edilir və onların dizaynı üçün vacibdir. Sınaq prosesində istifadəyə verilən perspektivli sistemlərin nümunələrinin əsas taktiki və texniki xüsusiyyətləri müəyyən edilir. Silahların, hərbi və xüsusi texnikanın keyfiyyət göstəricilərinin təhlili göstərir ki, onların ədədi dəyərlərinin seçilməsi (təyin edilməsi) çətin məsələdir. Bu mürəkkəblik fərdi keyfiyyət göstəricilərinin çoxluğu, müxtəlifliyi və uyğunsuzluğu ilə bağlıdır. Səmərəliliyin (keyfiyyətin) özəl göstəriciləri əsasında silahların, hərbi və xüsusi texnikanın rasional növü formalaşdırılır və konkret nümunələr üçün optimal performans xüsusiyyətləri müəyyənləşdirilir və əsasları özündə əks etdirən taktiki-texniki və ya texniki tələblərin işlənib hazırlanması məqsədilə tapşırıq formalaşdırılır. Silahlara, hərbi və xüsusi texnikaya olan tələbləri dəqiqləşdirmək üçün düzgün qərar qəbul etmək bacarığı yeni modellərin uğurlu dizaynının əsas şərtidir. Bu, mövcud silah növlərinin hərtərəfli öyrənilməsini, həll edilməli olan bütün məsələlərin nəzəri və eksperimental tədqiqinin müasir metodlarından istifadəni, silahların, hərbi və xüsusi texnikanın döyüş istifadəsi şəraitinin dərindən öyrənilməsini tələb edir. Sənəddə silahların, hərbi və xüsusi texnikanın xüsusiyyətlərinin sistemləşdirilməsi təklif olunur ki, bu da silahların, hərbi və xüsusi texnikanın döyüş istifadəsinin effektivliyini qiymətləndirmək üçün asılılıqların əldə edilməsi yollarını göstərməyə imkan verir.

**Açar sözlər:** silahlar, hərbi və xüsusi texnika, döyüş istifadəsinin effektivliyi, keyfiyyət, performans tələbləri, performans xüsusiyyətləri.

**Abstract**

**Systematization of properties of weapons, military and special equipment**

**Anatoly Kovtun, Vladimir Tabunenko**

Modern developments in the field of weapons, military and special equipment are focused on the search and development of new technical solutions and technological advantages designed to increase the efficiency of the use of advanced weapons systems. Indicators of the combat effectiveness of weapons and military equipment are specified in the terms of reference for the development of combat weapons and are the basis for their design. In the process of testing, the main tactical and technical characteristics of samples of advanced systems that are being put into service are specified. An analysis of the quality indicators of weapons, military and special equipment shows that the choice (assignment) of their numerical values is a difficult task. This complexity is due to the large number, variety and inconsistency of individual quality indicators. On the basis of private indicators of efficiency (quality), a rational type of weapons, military and special equipment is formed, and optimal performance characteristics are determined for specific samples and a tactical-technical or technical assignment for development is formed, containing the basic requirements for samples. The ability to make the right decision to clarify the requirements for weapons, military and special equipment is the main condition for the successful design of new models. This requires a thorough study of existing types of weapons, the use of modern methods of theoretical and experimental research of all issues to be resolved, and a deep study of the conditions for the combat use of weapons, military and special equipment. The paper proposes a systematization of the properties of weapons, military and special equipment, which allows you to outline ways to obtain dependencies for assessing the effectiveness of the combat use of weapons, military and special equipment.

**Keywords:** weapons, military and special equipment, effectiveness of combat use, quality, performance requirements, performance characteristics.

*Məqalə redaksiyaya daxil olmuşdur: 07.12.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 18.01.2022*
*Çapa qəbul edilmişdir: 07.02.2022*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№1 (8)/2022, səh. 41-51**
***MİLLİ TƏHLÜKƏSİZLİK*** ***NATIONAL SECURITY***

UOT 327

# AZƏRBAYCANIN İZOLYASİYA SİYASƏTİ: SƏBƏBLƏR, NƏTİCƏLƏR VƏ ÇIXIŞ YOLLARI

**siy.e.ü.f.d. Vüqar Məmmədzadə**
**f.-r.ü.f.d., dosent Elxan Səbziyev**
*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
E-mail: vuqar-memmedzade@mail.ru

***Xülasə.*** Məqalədə Azərbaycan və Türkiyənin Ermənistana tətbiq etdiyi izolyasiya siyasəti, onun səbəbləri, nəticələri və müxtəlif aspektləri təhlil olunur. Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbə qazanmasında Bakı və Ankaranın tətbiq etdiyi izolyasiya siyasətinin təsiri müəyyən edilir. Həmçinin izolyasiya prosesinin Ermənistan əhalisinin sayının dəyişmə tendensiyasına təsiri qiymətləndirilir.

**Açar sözlər:** izolyasiya siyasəti, İkinci Qarabağ müharibəsi, nəqliyyat kommunikasiyaları, demoqrafik tendensiya, miqrasiya prosesi.

## Giriş

Tarixən izolyasiya siyasəti dövlətlər tərəfindən müəyyən siyasi nəticələr əldə etmək məqsədilə sərhədlər boyunca ticari-iqtisadi fəaliyyətləri məhdudlaşdırmaq üçün istifadə olunan təsir və güc vasitəsi olmuşdur. Dövlətlər və beynəlxalq təşkilatlar müəyyən hədəflərə çatmaq üçün obyektə qarşı izolyasiya siyasətini təsir vasitəsi kimi dəniz, quru və hava məkanında tətbiq edirlər. Lakin XX əsrə qədər izolyasiya siyasətindən nadir hallarda istifadə edilirdi.

İzolyasiya siyasəti obyektin xarici əlaqələrini kəsərək təcrid edilməsinə yönəlmiş prosesdir. Müasir dövrdə izolyasiyalar (blokada) sanksiyaların populyar alətinə çevrilmişdir [1]. İzolyasiya, boykot, embarqo və iqtisadi sanksiyalar dərəcəsinə görə fərqlənir ki, bunların da hər biri obyekti məhdudlaşdırma və cəzalandırma mexanizmi sayılır.

İzolyasiyanın məqsədi müxtəlif ola bilər:
1. Hərbi əməliyyatları dayandırmaq.
2. İqtisadi və hərbi potensialı zəiflətmək.
3. Siyasi kursu dəyişdirmək.
4. Siyasi rejimi dəyişdirmək.
5. Obyekt ölkənin məğlubiyyəti üçün əlverişli şərait yaratmaq.

İzolyasiya siyasətinin effektiv siyasi vasitə olduğuna dair qəti sübutlar təqdim etmək çətin olsa da, izolyasiya faktlarının sayı artır və bu təsir mexanizmi getdikcə populyarlaşır. Günümüzdə Ukraynanın Krıma, İsrailin Qəzza bölgəsinə, ABŞ-ın Kuba və Şimali Koreyaya, Körfəz ölkələrinin Qatara, Gürcüstanın Abxaziya və Cənubi Osetiyaya, Azərbaycan və Türkiyənin Ermənistana və s. qarşı tətbiq etdiyi izolyasiya siyasəti davam etməkdə olan proseslərdir.

Azərbaycan və Türkiyə Ermənistana qarşı tətbiq etdiyi izolyasiya siyasətini beynəlxalq humanitar hüquqa zidd olmayan və legitim təsir vasitəsi kimi "işğalçını sülhə məcburetmə və cəzalandırma" mexanizmi olaraq görür.

Bu məqalədə Azərbaycan və Türkiyənin Ermənistanın işğalçı siyasətinə qarşı tətbiq etdiyi izolyasiya siyasəti sonuncunun məğlubiyyəti üçün əlverişli şərait yaratmaq prizmasından təhlil edilir.

## İzolyasiyanın səbəbləri

Sovet hakimiyyəti illərində Rusiya ilə ümumi sərhədi olmayan Ermənistan Moskva ilə, əsasən, Azərbaycan SSR-i ərazisi vasitəsilə əlaqə saxlayırdı. Lakin 1988-ci ildən Ermənistanın Azərbaycanın Qarabağ bölgəsinə iddiasından sonra rəsmi Bakı Yerevanla tranzit əlaqələrini dondurdu. Bununla

Azərbaycan Qarabağ bölgəsinə Ermənistandan gələn separat dəstəyin qarşısını almağa çalışırdı. 1988-ci ildən Azərbaycanın Ermənistana qarşı mərhələli şəkildə tətbiq etdiyi izolyasiya siyasəti 4 sentyabr 1989-cu ildə rəsmən elan edildi [2]. Tərəflər arasında başlamış lokal toqquşmalar Azərbaycan və Ermənistanın 1991-ci ildə müstəqillik əldə etməsi ilə genişmiqyaslı hərbi əməliyyatlara çevrildi. Müharibənin davam etdiyi 1991–1994-cü illərdə Ermənistan Azərbaycanın 20% ərazisini işğal etməklə həmin ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirdi. Ermənistanın işğal faktoru və onun törətdiyi humanitar böhran (məcburi köçkün və qaçqın) azərbaycanlılar üçün güclü birləşdirici amilə çevrilməklə yanaşı, rəsmi Bakının Yerevana qarşı sərt mövqe tutmasına səbəb oldu. Müharibə azərbaycanlıların erməni xalqına münasibətini kökündən dəyişdi. Azərbaycanda rəsmi səviyyədə və ictimai fikirdə Ermənistan dövləti düşmənə çevrildi [3]. Bu ideologiya hərbi doktrinanın fundamental elementini təşkil etməklə, beynəlxalq təşkilatlar və bütün dövlətlər tərəfindən təcavüzkarın qınanmasına və təcridinə səbəb oldu [1].

Ermənistan Azərbaycan, Gürcüstan və Türkiyəyə qarşı ərazi iddiaları irəli sürür və bu ölkələrin ərazi bütövlüyünü qəbul etməməklə bölgədə geosiyasi təhdidlər yaradır [4, s.40]. Bu kontekstdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları rəsmi Bakı üçün ikiqat təhdid idi. Bununla Yerevan Azərbaycanın həm ərazi bütövlüyünü, həm də yeni dirçəlməkdə olan milli şüur və qürur hissini təhdid edirdi [5].

BMT TŞ-nın 4 qətnaməsi (822, 853, 874 və 884), NATO PA, AŞPA, İƏT və digər beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığı çərçivəsində həlli üçün hüquqi baza yaratsa da, rəsmi Yerevan bunların heç birinə əməl etmək istəmirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci il oktyabrın 4-də Avropa İttifaqı Şurasının nümayəndə heyəti ilə görüşdə münaqişənin həll edilməmə səbəblərindən birinin, məhz təcavüzkara qarşı beynəlxalq səviyyədə təzyiqin olmamasını bildirərək demişdir: *"Əgər Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, bəlkə də münaqişə çoxdan həll edilmiş olardı"* [4, s.53].

Azərbaycan beynəlxalq hüququn işləmədiyini və işğalçıya qarşı heç bir cəzalandırıcı tədbirlərin tətbiq edilmədiyini gördükdə, BMT TŞ-nın məlum qətnamələri əsasında Ermənistana qarşı "BMT +" formatında izolyasiya siyasətini formalaşdırdı.

Azərbaycanın Ermənistana tətbiq etdiyi izolyasiya siyasətini iqtisadi deyil, siyasi səbəblər (milli təhlükəsizlik məsələləri) diktə etmişdir. Yerevana qarşı bu prosesə 1993-cü ildən Türkiyə də qoşulmaqla, ilk olaraq quru sərhədini, daha sonra isə hava məkanını bağlamaqla Yerevana geosiyasi təzyiqi artırdı. Ermənistanın təcavüzkar siyasəti Azərbaycan və Türkiyə arasında hərbi əlaqələrin güclənməsinə və ortaq regional strategiyanın qurulmasına gətirib çıxartdı [6]. Türkiyə Azərbaycanın işğal olunmuş əraziləri azad olunmayana qədər Ermənistanla münasibətlərini normallaşdırmaqdan imtina edərək [7], Yerevanı beynəlxalq öhdəlik və normaların yerinə yetirməyə vadar edirdi. Bununla yanaşı, Türkiyədən başqa, Pakistan və Səudiyyə Ərəbistanı da Ermənistanın işğalçı siyasətini qınayaraq onunla diplomatik münasibətlər qurmayacaqlarını elan etmişlər.

Bunlara rəğmən Ermənistanın kompromissiz xarici siyasəti (ərazi iddiaları) onu Azərbaycanın reallaşdırdığı enerji infrastruktur layihələrində iştirakdan məhrum etdi. Bu isə Ermənistanı Rusiyanın iqtisadi və hərbi orbitinə daha da sıx bağladı [8].

Lakin digər qonşu ölkələrin Azərbaycan və Türkiyənin kollektiv izolyasiya siyasətinə münasibəti birmənalı olmamışdır. Bəzi dövlətlər izolyasiya siyasətini özləri üçün maneə, digərləri isə fürsət olaraq görürdülər. Ermənistanı dəstəkləyən bəzi ölkələr izolyasiyanın uğursuz olmasında maraqlı idilər və hədəf ölkəyə blokadadan çıxması üçün dolayı və birbaşa kömək edirdilər.

Belə ölkələrdən biri Ermənistanın cənub istiqamətində xarici aləmlə fəaliyyətinə imkan verən İran İslam Respublikasıdır. İran–Ermənistan dəmir yolunun olmaması və avtomobil yolunun texniki səviyyəsinin aşağı olması, münasibətlərin inkişafı üçün maneə təşkil etsə də [9], Tehran Birinci və İkinci Qarabağ müharibəsində Yerevanı müxtəlif yollarla dəstəkləməyə çalışırdı. İran Ermənistanı yanacaqla və digər həyati məhsullarla, Rusiya isə hərbi sahədə (silahla) təmin edirdi. İran Ermənistanın əsas iqtisadi tərəfdaşlarındandır və son məlumatlara görə Qarabağ erməniləri ilə aktiv

ticarət əlaqələrinə malikdir [4, s.55]. İran hətta İkinci Qarabağ müharibəsinə qədər Araz çayı üzərindən Azərbaycanın nəzarətsiz ərazilərinə (Qarabağ, Cəbrayıl rayonu) körpü və su qovşağı inşa etmiş (Şəkil 1), bu vasitə ilə birbaşa separatçılarla əlaqə qurmuşdu. İkinci Qarabağ müharibəsi dövründə Gürcüstan Rusiya ilə sərhədini bağladıqda Moskvadan Yerevana yardımlar İran ərazisindən ötürülürdü. Azərbaycanın İkinci Qarabağ müharibəsində ki, qələbəsindən sonra da İranın yük maşınları Zəngəzurdan keçməklə rus sülhməramlılarının nəzarətində olan Qarabağın dağlıq hissəsində erməni yaşayış məntəqələrinə qeyri-qanuni yollarla yük daşıma həyata keçirirdilər. Qeyd etmək lazımdır ki, İran–Ermənistan münasibətləri iqtisadi səmərə əsasında deyil, daha çox geosiyasi maraqlar fonunda formalaşmışdır. Məhz bu səbəbdən 28 sentyabr 2021-ci ildə İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə müsahibəsində bildirmişdir ki, İran üçün Qarabağda 25000 erməni əhalisi ilə ticarət niyə bu qədər önəmlidir [10].




**Şəkil 1. İran Araz çayı üzərindən Azərbaycanın nəzarətsiz ərazilərinə (Qarabağ, Cəbrayıl rayonu) körpü**

Lakin Ermənistanın ixrac məhsullarının böyük hissəsini içki və tütün çeşidlərinin təşkil etməsi, bu məhsulların İran İslam Respublikasına göndərilməsini çətinləşdirməklə yanaşı, İrana qarşı Qərbin tətbiq etdiyi embarqo və sanksiya siyasəti də ikili inteqrasiyanı məhdudlaşdırır.

Qeyd etmək lazımdır ki, Azərbaycan və Türkiyə sərhədlərinin bağlı olması Ermənistanın iqtisadi problemlərinin yeganə mənbəyi deyil. Ermənistanın yalnız Gürcüstan və İranla sərhədlərinin açıq olması onun dünya iqtisadiyyatına inteqrasiyasını məhdudlaşdırmaqla yanaşı, təhlükəsizlik risklərini də artırır. Bu gün Ermənistan yüklərinin təxminən 70%-i Gürcüstan ərazisindən, qalan hissəsi İran üzərindən daşınır [8].

Lakin Gürcüstan–Abxaziya münaqişəsi (1992) nəticəsində Moskva–Suxumi və Tbilisi–Yerevan dəmir yolunun bağlanması və Gürcüstan–Cənubi Osetiya münaqişəsi (2008) Ermənistanın blokadasını daha da dərinləşdirdi. Xüsusilə, Gürcüstan–Cənubi Osetiya münaqişəsi (2008) regionda geopolitik konyunkturanı dəyişərək 10 oktyabr 2009-cu ildə (İsveçrə, Sürix) Ermənistan və Türkiyə arasında diplomatik münasibətlərin qurulması barədə protokolların imzalanması prosesinə təşviq etdi [11]. Lakin Azərbaycanın diplomatik təzyiqləri nəticəsində bu protokolların reallaşması baş tutmadı. Ermənistanın Gürcüstan sərhədindən keçərək Rusiyaya açılan “Yuxarı Lars” (Rusiya–Gürcüstan sərhədi) yeganə nəqliyyat yolunun qış fəslində hava şəraitinin pisləşməsi və tərəflər arasında siyasi qeyri-müəyyənlik səbəbindən 2004, 2006, 2008, 2010-cu illərdə bağlanması göstərdi ki, Ermənistanın onsuzda ağır olan sosial-iqtisadi və demoqrafik vəziyyəti dərinləşməkdə davam edir.

Beləliklə, Qərbdən və Şərqdən dalana sıxışmış Ermənistanın iqtisadi-sosial durumu getdikcə geriləməyə məruz qalır. Türkiyənin və Rusiyanın malları əlavə ödənişlə üçüncü dövlətlərin

ərazisindən keçərək Ermənistana daxil olur [9]. Siyasi səbəblərə görə Rusiya–Gürcüstan sərhədlərinin vaxtaşırı bağlanması və İrana qarşı Qərbin sanksiyaları Ermənistanı yeni alternativ yollar axtarmağa sövq edir.

### Ermənistanın izolyasiya siyasətinə reaksiyası

Ermənistan Azərbaycan ərazilərini işğal etdiyi dönəmdə ABŞ-ın erməni diasporunun dəstəyi ilə 1992-ci ilin oktyabrında Konqres tərəfindən 907-ci düzəliş (Azadlığa Dəstək Aktı) qəbul edilmişdir ki, bu sənəddə Bakının Ermənistan və Qarabağ bölgəsinə blokada tətbiq etdiyinə görə Azərbaycana hər hansı yardım qadağan edilmişdir [12]. Yalnız 2002-ci ildə Corc Buş administrasiyası Prezidentə əlavə şərtlər olmadan onun fəaliyyətini dayandırmaq hüququ verərək Konqresi 907-ci Bölməni faktiki olaraq ləğv etməyə inandıra bildi. Ağ Ev Azərbaycanın 2001-ci il sentyabrın 11-dən sonra başlayan "qlobal terrora qarşı müharibə"də fəal iştirakına işarə edib və onun Konqresin təklifinə müqavimətlə üzləşməyib 2002-ci ildən bəri Amerika prezidentləri hər il öz qərarları ilə Azadlığa Dəstək Aktının 907-ci maddəsini dayandırırlar [4].

Sosial-iqtisadi çöküşlə üzləşən Ermənistanın sabiq dövlət başçıları ölkəni bu vəziyyətdən çıxarmaq üçün siyasi həll yolları axtarırdılar. Belə cəhdlərdən birincisini Ermənistanın I prezidenti Levon Ter-Petrosyan 1997-ci ilin sonunda "Müharibə və ya sülh. Ciddiləşmə vaxtıdır" adlı məqaləsində siyasi komandasını Qarabağ münaqişəsinin həlli və sərhədlərin açılması olmadan "Ermənistan dövlətinin normal inkişafının mümkün olmayacağı" barədə xəbərdar etdi. L.Ter-Petrosyan tərəflər arasında sülh sazişinin imzalanması ilə Ermənistanın blokadasının sona çatacağını və sabit inkişafın olacağını da qeyd edirdi [13]. Lakin hakimiyyətin bu cəhdindən sonra Ermənistan parlamentində terror hadisəsi baş verdi və L.Ter-Petrosyan vəzifəsindən istefa vermək məcburiyyətində qaldı.

İkinci belə cəhdi Ermənistanın III prezidenti Serj Sarkisyan 2008-ci ildə Cənubi Osetiya uğrunda Gürcüstan–Rusiya münaqişəsindən sonra ölkənin düşdüyü ağır geosiyasi və geoiqtisadi vəziyyətin dərinləşməsindən sonra etdi. S.Sarkisyan prezidentliyinin ilk illərində Ermənistan–Türkiyə sərhədinin açılmasına cəhd etsə də, buna nail ola bilmədi. Bu uğursuzluğun təməlində Ermənistanın Qarabağ məsələsində güzəştə getmək istəməməsi faktoru dayanırdı. Ermənistan hər vəchlə Ermənistan–Türkiyə münasibətlərini Ermənistan–Azərbaycan münaqişəsindən ayırmağa çalışmış, lakin bunun mümkün olmayacağını və daha uzun müddət erməni cəmiyyətinin izolyasiya siyasətindən əziyyət çəkəcəyini anlamış oldu. Uğursuzluqlara baxmayaraq rəsmi Yerevan və erməni ictimaiyyəti işğalçı siyasətindən əl çəkmədən, yeni alternativ axtarışlara davam etdilər.

Beləliklə, Ermənistan Azərbaycana qarşı aşağıdakı prinsiplər əsasında fəaliyyətini qurmuşdu:

− Naxçıvan Muxtar Respublikasını blokada vəziyyətində saxlamaq;

− Azərbaycan–Türkiyə təşəbbüslərinə qarşı çıxmaqla, Ermənistan–İran və Ermənistan–Gürcüstan tərəfdaşlığını formalaşdırmaq;

− İran ərazisindən Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsinə (Cəbrayıldan) körpü tikməklə "Artsak respublikasına" yeni nəfəs vermək;

− "Fars Körfəzi–Qara Dəniz" (FKQD) beynəlxalq tranzit dəhlizini formalaşdırmaq və bu layihədə aparıcı rola malik olmaq;

− İranla sərhəddə, Zəngəzur (Syunik) bölgəsində azad iqtisadi zona yaratmaq.

Regionda planlaşdırılan nəqliyyat layihələrindən biri də Fars Körfəzi–Qara Dəniz nəqliyyat dəhlizidir (FKQD) ki, İranın təklif etdiyi layihənin məqsədi Cənubi Qafqaz və Qara Dəniz vasitəsilə Avropaya çıxış əldə etmək, Türkiyədən və Azərbaycandan asılılığı azaltmaqdır.

Qeyd etmək lazımdır ki, Ermənistanda FKQD nəqliyyat dəhlizi vasitəsilə İranın limanlarından istifadə etmək, onunla kommunikasiyaları şaxələndirmək üçün siyasi iradə olsa da, maliyyə resursları mövcud deyil. Bunun üçün Ermənistan tərəfi İranla infrastruktur layihələri, həmçinin avtomobil və dəmir yolu kommunikasiyalarının inşasını reallaşdırmalıdır [14].

Xüsusilə, Ermənistanın İkinci Qarabağ müharibəsindəki məğlubiyyətindən sonra reallaşması planlaşdırılan Zəngəzur (Syunik) dəhlizi fonunda (Şəkil 2), Tehranın bu bölgənin (Zəngəzur)

bütövlüyünü və təhlükəsizliyini təmin etmək məsuliyyətini hiss etməsi Yerevan üçün son dərəcə vacib amildir. İranın İkinci Qarabağ müharibəsi nəticəsində regionda geosiyasi və geoiqtisadi təsir rıçaqlarını itirməsi ilə Yerevan Tehranın ambisiyalarını qabartmağı hədəfləməkdədir. Lakin bölgədə geosiyasi və geoiqtisadi reallıqlar çoxdan Azərbaycan və onun müttəfiqlərinin lehinə dəyişmişdir.




**Şəkil 2. Zəngəzur dəhlizi**

## Azərbaycanın izolyasiya strategiyası

Ermənistanın işğalçılıq siyasətinin nəticəsində dövlət sərhədinin 83%-i bağlı vəziyyətdədir. Azərbaycan və Türkiyənin Ermənistana tətbiq etdiyi izolyasiya siyasəti Yerevanın iqtisadiyyatına təsir edən faktorlardan sadəcə biri olduğundan, onun iqtisadiyyatına dəymiş zərərin hesablanması bu səbəbdən asan deyildir. Bununla yanaşı, Ermənistanda dərinləşməkdə olan demoqrafik böhran, iqtisadi anemiya, işsizliyin artması, məhdud investisiya və s. faktorlara izolyasiya siyasətinin təsiri təkzibedilməzdir. Azərbaycan Ermənistana qarşı reallaşdırdığı izolyasiya siyasətinin effektivliyini artırmaq üçün Türkiyə faktorundan geniş şəkildə istifadə etməkdədir.

Azərbaycanın Ermənistana qarşı tətbiq etdiyi izolyasiya siyasəti 2 vacib komponentdən ibarətdir:

1. Ermənistandan yan keçən regional layihələrin (Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Trans–Anadolu qaz boru kəməri, Trans–Adriatik qaz kəməri, Bakı–Supsa neft boru kəməri, Şimal–Cənub dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu, və s.) həyata keçirilməsi.

2. Ermənistansız əməkdaşlıq formatlarının yaradılması (məs., Azərbaycan–Gürcüstan–Türkiyə, Azərbaycan–İran–Türkiyə, İran–Azərbaycan–Rusiya, Gürcüstan–Ukrayna–Azərbaycan–Moldova və s.).

Azərbaycan bölgədə tranzit potensialını həyata keçirərkən, əsas məqsədi bu layihələrdə iştirak edən ölkələrə kredit verən donor ölkə olmaqla (məs., Gürcüstana Bakı–Tbilisi–Qars dəmir yolu və İrana Qəzvin–Rəşt–Astara), yeni alternativ layihələrin iqtisadi məqsədəuyğunluğunu da azaltmaq olmuşdur.

**İzolyasiyanın demoqrafik təsiri**

Əhalinin azalması hər bir dövlət üçün milli təhlükəsizlik problemidir. Azalmaqda olan əhali dövlətin (milli gücün başlıca instrumentləri olan) iqtisadiyyatına və hərbi gücünə birbaşa zərbədir. Çünki bu səbəbdən iqtisadiyyatda alıcılıq fəallığı azalır və orduda əsgər qıtlığı yaranır.

Müstəqillik əldə etdikdən sonra neqativ demoqrafik tendensiya və onun uzunmüddətli nəticələri Ermənistan dövlətinin milli təhlükəsizliyi üçün əsas təhdidlərdən biri sayılmaqdadır [15].

Dünya Bankının son məlumatlarına görə, 1990-cı ildən Ermənistanın əhalisi durmadan azalır. Ermənistan iki əsas demoqrafik problemlə üzləşib: aşağı doğum və miqrasiya. Fakt budur ki, doğum səviyyəsinin azalması ilə paralel olaraq miqrasiyanın səviyyəsi də artır. Ermənistanda doğum səviyyəsi 1,5-dir, yəni çoxlu sayda ailənin ikinci övladı belə yoxdur. Miqrasiyaya gəlincə 29 il ərzində (1991–2020) Ermənistana köçənlərin sayı ilə mühacirlərin sayı arasında fərq mənfi 1 milyon 120 min nəfər olmuşdur.

BMT-nin Əhali Fondunun proqnozlarına görə, Ermənistan əhalisi artan ölkə deyil. Ermənistanda XXI əsrin ortalarında indiki 2,9 milyon əvəzinə 2,7 milyon insan yaşayacaq [16]. Lakin bu statistika hesablandığı zaman Pandemiya və İkinci Qarabağ müharibəsi baş verməmiş, yəni Ermənistanda minlərlə insan itkisi olmamışdır. BMT-nin Əhali Fondunun icraçı nümayəndəsi Tsovinar Arutyunyan əvvəllər bəyan etmişdi ki, Ermənistan artıq demoqrafik böhrana girib və tədricən depopulasiyaya, yəni ölüm səviyyəsinin arta biləcəyi mərhələyə yaxınlaşır. Rusiyalı ekspert Yevgeniy Mixaylov isə hesab edir ki, Ermənistan məhz "uzaqgörən" siyasətinə və bütün qonşularına münasibətdə işğalçı statusu qazandığına görə depopulyasiyanın fəlakətli nəticələri ilə üzləşib: *"Nə ironiyadır... İrəvan soyqırımın tanınmasını tələb edir, ermənilər isə Türkiyəyə işləməyə və oxumağa gedirlər"* [17].

Son illər ərzində Ermənistan demoqrafik vəziyyəti yaxşılaşdırmaq üçün bəzi proqramlar həyata keçirməyə çalışırdı. Hesab olunurdu ki, Yaxın Şərq (əsasən, Suriya və Livan) ölkələrindən ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində məskunlaşdırılması demoqrafik dəyişikliyə töhfə verəcəkdir [17]. Lakin İkinci Qarabağ savaşında Azərbaycanın zəfər qazanması sonra onların mütləq əksəriyyətinin bu əraziləri tərk etməsi ilə nəticələndi. Beləliklə, Ermənistanın bu cəhdləri də, nəticəsiz qaldı. Azərbaycanın azad olunmuş ərazilərini tərk etmiş erməni əhalisi Ermənistana deyil, digər dövlətlərə miqrasiya etməyə üstünlük verir. 2020 və 2021-ci illərdə Ermənistandan mühacirət edənlərin 90%-i Rusiyaya gedib və onların yalnız yarısı (50,4%) 3 ay və ya daha çox müddətdən sonra Ermənistana qayıdıb. Miqrasiya edən şəxslərin 65%-i kişi və əsasən 18–55 yaşında əhalidir. Əgər dünya üzrə miqrasiyanın orta səviyyəsi təxminən 0,3 faiz təşkil edirsə, Ermənistanda bu rəqəm 30 faizi ötür və hazırda dünya üzrə erməni diasporunun sayı Ermənistan əhalisini ən azı dörd dəfə üstələyir [18].

Əgər hər il Ermənistanı 50–60 min insan tərk edirdisə [19], 2021-ci il ölkədən 110 min insan miqrasiya edib [20].

Bütövlükdə Ermənistanın müasir tarixində ekspertlər mühacirətin üç mərhələsini ayırırlar: birinci dalğa SSRİ-nin dağılması və Qarabağ müharibəsi nəticəsində yaranıb. Cəmi üç il ərzində – 1991–1994-cü illərdə respublikanı yarım milyondan çox insan tərk edib. İkinci mərhələ 1999–2001-ci illərdə baş verdi ki, Ermənistanı təxminən 190 min nəfər tərk etdi. Üçüncü mərhələ 2008-ci ildə qlobal iqtisadi böhranın nəticəsində baş verdi [21]. Dördüncü mərhələ isə 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra başlamış və bu günə qədər davam edir. İkinci Qarabağ müharibəsi Ermənistanda iqtisadi tənəzzülü sürətlənməklə yanaşı, azad olunmuş ərazilərdən (Qarabağ və Zəngəzur iqtisadi bölgəsi) erməni əhalinin köçü və məcburi hərbi xidmətdən yayınmaq istəyənlər arasında mühacirəti stimullaşdırdı.

Artıq Ermənistanda müəssisə və sənayelərin normal fəaliyyət göstərməsi üçün kifayət qədər insan resursları yoxdur. Ermənistan hökuməti və cəmiyyəti anlamalıdır ki, yeni yaranmış geosiyasi reallıqlar ölkənin düşdüyü böhrandan çıxması üçün kommunikasiyaların açılmasını diktə edir. Əgər İkinci Qarabağ müharibəsinə qədər Ermənistana qarşı Azərbaycan və Türkiyənin izolyasiya siyasəti müəyyən effektə malik idisə, hazırda isə, blokada siyasətinin təsiri daha geniş müstəvidə özünü

göstərir. Çünki Ermənistan 4 qonşusundan yalnız ikisi (Gürcüstan və İran) ilə əlaqə saxlaya bilirdisə, indi isə Qafan–Gorus yolunun 21 km-nin Azərbaycanın nəzarətinə keçməsi (Şəkil 3) (bu yolda Bakının gömrük postlarını qurması), Qafan aeroportunun Azərbaycan sərhədindən 200 metr məsafədə yerləşməsi, zamanla Qazax rayonuna aid hələ də işğalda olan (anklav) kəndlərin azad olunması ilə Ermənistan–Gürcüstan avtomobil yolu (Şəkil 4) və Rusiyanın qaz boru kəməri də, Bakının nəzarətinə keçəcəkdir.




**Şəkil 3. Qafan–Gorus yolunun Azərbaycan ərazisindən keçən hissəsi**




**Şəkil 4. Qazax rayonunun işğalda olan kəndlərinin ərazisindən keçən Ermənistan–Gürcüstan avtomobil yolu**

Bakı Gorus–Qafan yolunu bağlamaqla faktiki olaraq Yerevan və Tehran arasında quru ticarətinə mane olur, həmçinin Ermənistanın cənubunun ölkənin qalan hissəsi ilə əlaqəsini kəsir.

Bu faktlar onu deməyə əsas verir ki, Ermənistanda nəqliyyat kommunikasiyalarının blokadası getdikcə dərinləşir [22].

Nəticədə Ermənistan bazarında rəqabətin səviyyəsi aşağı düşür, idxal olunan mallar əlavə vergilərlə ölkəyə daxil olur, şirkətlərin regional layihələrdə iştirakı məhdudlaşır və ölkəyə xarici investisiyaların axını zəifləyir.

## Demoqrafik vəziyyətin dəyişməsinin qiymətləndirilməsi

30 ildən artıq davam edən Ermənistan-Azərbaycan konflikti müddətində Ermənistana qarşı tətbiq olunan izolyasiya siyasətinin nəticəsi ölkə əhalisinin sayının dəyişmə tendensiyasında öz əksini tapmışdır. Bu siyasətin təsirini 1951–2021-ci illəri əhatə edən statistik məlumatlar [16; 23] əsasında görmək olar (Şəkil 5). Məlumatların qrafik şəkildə təsvirindən görünür ki, əhalinin sayının dəyişmə xarakterinə görə baxılan dövrü iki hissəyə bölmək olar: 1951–1991 və 1991–2021-ci illər.

1951–1991-ci illər faktiki olaraq "stabil həyat tərzi" kimi xarakterizə olunan SSRİ dövrünə aiddir və bu dövrdə təsadüfi deyil ki, əhalinin dəyişmə qrafiki müsbət trendə malikdir. Müqayisə üçün şəkil 5-də Qırğızıstan və Ermənistan əhalisinin sayının illər üzrə dəyişmə qrafiki verilmişdir.




**Şəkil 5. Qırğızıstan və Ermənistan əhalisinin sayının illər üzrə dəyişmə qrafiki: yuxarıda qırmızı rəngdə – Qırğızıstan əhalisinin dəyişmə qrafiki; aşağıda göy rəngdə – Ermənistan əhalisinin dəyişmə qrafiki.**

Eyni zamanda şəkil 5-dən görünür ki, qrafiklərin 1991–2021-ci illərə aid olan hissələri əks trendlərə malikdir. Bu trendləri kəmiyyətcə müqayisə etmək üçün illərdən asılı olaraq əhalinin sayının dəyişmə asılılığını hissə xətti funksiyası kimi vermək olar:

$$S^K(n) = \begin{cases} a_1^K \cdot n - b_1^K, & n = 1951, 1952, \dots, 1990, \\ a_2^K \cdot n - b_2^K, & n = 1991, 1992, \dots, 2021, \end{cases}$$

burada $K = 1, 2$ asılılığın uyğun olaraq Qırğızıstana və ya Ermənistana aid olduğunu göstərir, $a_1^K$ və $a_2^K$ əmsalları uyğun olaraq 1951–1991 və 1991–2021-ci illər üçün min nəfər hesabı ilə əhalinin orta illik artımını göstərir, $b_1^K$ və $b_2^K$ – min nəfər hesabı sabit kəmiyyətlərdir. Ermənistan və Qırğızıstanın [16; 23] statistik məlumatları əsasında $S^K(n)$, $K = 1, 2$ funksiyalarının əmsalları aşağıdakı kimi identifikasiya oluna bilər:

$$a_1^1 = 69.3, \quad a_2^1 = 70.0, \qquad a_1^2 = 58.8, \quad a_2^2 = -16.3,$$
$$(b_1^1 = 133585.0, \quad b_2^1 = 70.0, \qquad b_1^2 = 113427.3, \quad b_2^2 = 35732.5).$$

Qeyd edək ki, bu kəmiyyətlər ən kiçik kvadratlar üsulunun tətbiqi ilə hesablanmışdır [24].

Beləliklə, 1951-dən 1991-ci ilə qədərki, 40 illik dövrdə stabil həyat tərzinə malik ölkənin illik artımı orta hesabla 58.8 min nəfərdir. Həmin dövr üçün Qırğızıstanın göstəricisi isə orta hesabla 69.3 min nəfərdir [16; 23]. 30 ili əhatə edən 1991–2021-ci illərdə bu Qırğızıstan üçün artaraq 70.0 min nəfər olmuşdursa, Ermənistan üçün bu ədəd 16.3 min nəfər olmuşdur. Adı çəkilən ölkələrdə yaşayış tərzinin bir birinə yaxın olmasına baxmayaraq əhalinin artım tempində olan bu fərq əsasən izolyasiya siyasətinin nəticəsi kimi izah oluna bilər.

## Nəticə

Ermənistanın işğalçı siyasətinə qarşı Bakı və Ankara izolyasiya siyasəti əsasında reallaşdırdığı meqalayihələr vasitəsilə regionda logistik sistemi öz xeyrinə dəyişdirmiş, Yerevanı bütün layihələrdən təcrid etmiş və onu regionun "dalan ölkə"sinə çevirə bilmişdir. İraq və Yuqoslaviyaya qarşı uzunmüddətli sanksiyalar tətbiq etdikdən sonra ABŞ və onun koalisiya gücləri Bağdad (2003-cü il) və Belqrada (1999-cu il) qarşı simvolik müharibəyə başladıqları [25] kimi, Azərbaycan da Türkiyənin dəstəyi ilə Ermənistana qarşı uzunmüddətli izolyasiya siyasəti tətbiq etmiş, otuz ildən çox davam edən Qarabağ münaqişəsinə 44 günlük müharibə ilə son qoymuş, Yerevanı kapitulyasiya aktını (10 noyabr 2020-ci il bəyanatı) imzalamağa məcbur etmişdir. Azərbaycan İkinci Qarabağ müharibəsində qazandığı qələbə nəticəsində regionda güclər nisbətini dəyişmiş və Bakının maraqlarına cavab verən yeni geosiyasi və geoiqtisadi reallıq formalaşdırmışdır. 10 noyabrda tərəflər arasında imzalanmış üçtərəfli razılaşma bəyənatının 9-cu maddəsinə əsasən Zəngəzur dəhlizinin reallaşacağı qeyd edilir ki, bu halda bölgədə qarşılıqlı olaraq izolyasiya siyasəti sona çatacaq və region dövlətlərinin inteqrasiya prosesinə start veriləcəkdir. Bu kontekstdə "3+3" (Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə, Rusiya, İran) formatında regional əməkdaşlıq təşəbbüsü gündəmə gətirilmişdir.

Ermənistan bu müharibənin məğlub tərəfi olsa da, onlar üçün də izolyasiya vəziyyətindən qurtulmaq, Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq və iqtisadi inkişafa nail olmaq imkanı meydana gəlmişdir. Əlbəttə, bunun üçün əvvəlcə Ermənistan Azərbaycan və Türkiyənin ərazi bütövlüyünü tanımalı, böyük sülh sazişini imzalamağa hazır olmalı və Zəngəzur dəhlizinin açılmasına mane olmamalıdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Сорокина, Д.Е. Глобальная экономика в XXI веке: диалектика конфронтации и солидарности. Сборник научных трудов / Д.Е.Сорокина. – Краснодар: – 2017. – 494 с.

2. Армения от блокады до выхода из изоляции. 1989-2018: [Электронный ресурс] / – 23 мая 2018. URL: https://www.kavkaz-uzel.eu/blogs/83781/posts/33153.

3. Punsmann, B.G., Chania, I., Shirinov, R., Avetisyan, S., Romashov, V., Anjaparidze, Z. Review of isolation policies within and around the South Caucasus: [Electronic resource] / Journal of Conflict Transformation/ – 18 Jul 2016. URL: https://caucasusedition.net/review-of-isolation-policies-within-and-around-the-south-caucasus/.

4. Məmmədzadə, V.M. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional aspektləri. Dərs vəsaiti / V.M.Məmmədzadə, X.İ.İskəndərov. – Bakı: "UNİCOPY", – 2020. – 145 s.

5. Rumer, E., Sokolsky, R., Stronski, P. U.S. Policy Toward the South Caucasus: [Electronic resource] / – Source: Getty, – 31 May 2017, URL: https://carnegieendowment.org/2017/05/31/u.s.-policy-toward-south-caucasus-take-three-pub-70122.

6. Маркедонов, С. М. Процесс нормализации армяно-турецких отношений: проблемы, вызовы, перспективы // Вестник РГГУ. Серия: Политология. История. Международные отношения, – 2012. №7 (87), – с. 248.

7. Cornell. Svante, E. Turkey and the Conflict in Nagorno Karabakh: A Delicate Balance // Middle Eastern Studies, – 1998. Jan., No. 1,vol. 34, – p. 51-72.

8. Руководство Грузии понимает важность вопросов транзита газа для Армении – президент: [Электронный ресурс] / – Арка, 27 января 2011 года. URL: http://arka.am/ru/news/economy/23658/.

9. Sachs, S. Armenia's Isolation Grows Only Deeper: [Electronic resource] / – December 26, 2004. URL: https://www.nytimes.com/2004/12/26/world/europe/armenias-isolation-grows-only-deeper.html.

10. İlham Əliyevin Türkiyənin Anadolu Agentliyinə müsahibəsi: [Elektron resurs] / – 28 sentyabr 2021. URL: https://president.az/articles/53249.

11. Armenia and Turkey normalise ties: [Electronic resource] / – BBC NEWS, 10 October 2009. URL: http://news.bbc.co.uk/2/hi/europe/8299712.stm.

12. Nichol, J. Armenia, Azerbaijan and Georgia: Political Developments and Implications for U.S. Interests: [Electronic resource] / J.Nichol – Congressional Research Service Report for Congress. 02.04.2014, – p.70. URL: https://www.fas.org/sgp/crs/row/RL33453.pdf.

13. Hakobyan, T. Karabakh Diary. Green and Black. Neither War Nor Peace / T.Hakobyan. – Printing House of the Armenian Catholicosate Of Cilicia, – 2010. – 416 p.

14. Баку не при делах: Ереван раскрыл детали проекта «Персидский залив – Черное море»: [Электронный ресурс] / – 05 октябр 2021. URL: https://ru.armeniasputnik.am/20211005/baku-ne-pri-delakh-erevan-raskryl-detali-proekta-persidskiy-zaliv--chernoe-more-33972793.html.

15. Стратегия Национальной Безопасности Республики Армения: [Электронный ресурс] / – 26 января 2007. URL: https://www.files.ethz.ch/isn/155589/NATIONAL%20%20SECURITY%20STRATEGYrus.pdf.

16. Население Армении: [Электронный ресурс] / – URL: https://countrymeters.info/ru/Armenia.

17. Демографические проблемы Армении: Депопуляция и расистская политика: [Электронный ресурс] / – 19 октябрь 2020. URL: https://azertag.az/ru/xeber/Demograficheskie_problemy_Armenii_depopulyaciya_i_rasistskaya_politika-1618525.

18. Sahakyan, A. Petrosyan, A. Утечка мозгов как угроза национальной безопасности Республики Армения: [Электронный ресурс] // – Sociology and Law, – 2018, pp. 6-14. URL: https://hal.archives-ouvertes.fr/hal-03319520/document.

19. Президент Азербайджана: ‘В Результате Нашей Политики Армения Лишилась Всех Доходоприносящих Проектов: [Электронный ресурс] / – 10 Jul 2018. URL: http://cbc.az/ru/news/news1531208154.

20. Ваге Акопян: Я жду все что угодно от этих некомпетентных и предательских властей: [Электронный ресурс] / – 24 сентябрь 2021. https://bit.ly/3wKuCg2.

21. Великий исход. Почему армяне не хотят жить на родине: [Электронный ресурс] / – 3 июня 2013. URL: https://lenta.ru/articles/2013/06/03/armenia/.

22. Прессинг на Армению: чего хочет Баку, чего ждет Россия? Комментарий из Еревана: [Электронный ресурс] / – 19 ноября 2021. URL: https://jam-news.net/ru/прессинг-на-армению-чего-хочет-баку-че/.

23. Население Кыргызстана: [Электронный ресурс] / – URL: https://countrymeters.info/ru/Kyrgyzstan.

24. Каштаева, С.В. Математическое моделирование / Учебное пособие. С.В. Каштаева. Пермь: ИПЦ «Прокрость», – 2020. – 112 с. URL: https://bit.ly/3iMwPiT.

25. Тимофеев, И.Н. Политика санкций: цели, стратегии, инструменты. Хрестоматия / И.Н.Тимофеев, Т.А.Махмутов. – Москва: НП РСМД, – 2018. – 280 с. ISBN 978-5-6041888-3-5 URL: https://russiancouncil.ru/upload/iblock/796/riac_sanctions_book.pdf.

**Аннотация**
**Политика азербайджанской изоляции: причины, последствия и пути**
**Вугар Мамедзаде, Эльхан Сабзиев**

В статье анализируется политика изоляции, применяемая Азербайджаном и Турцией в отношении Армении, ее причины, последствия и различные аспекты. Определяется влияние политики изоляции на победу Азербайджана во Второй Карабахской войне. Также было оценено влияние процесса изоляции на тенденцию изменения численности армянского населения.

**Ключевые слова:** политика изоляции, Вторая Карабахская война, транспортные коммуникации, демографические тенденции, миграционный процесс.

**Abstract**
**Azerbaijan's policy of isolation: causes, results and ways out**
**Vugar Mammadzade, Elkhan Sabziyev**

The article analyzes the isolation policy applied by Azerbaijan and Turkey in relation to Armenia, its causes, consequences and various aspects. The influence of the policy of isolation on the victory of Azerbaijan in the Second Karabakh War is determined. The influence of the isolation process on the tendency of changes in the size of the Armenian population was also assessed.

**Keywords:** policy of isolation, Second Karabakh War, transport communications, demographic trends, migration process.

*Məqalə redaksiyaya daxil olmuşdur: 13.12.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 20.01.2022*
*Çapa qəbul edilmişdir: 09.02.2022*

**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№1 (8)/2022, səh. 52-59**
***MİLLİ TƏHLÜKƏSİZLİK*** ***NATIONAL SECURITY***

UOT 351/354

# İQTİSADİ ASILILIQ MİLLİ TƏHLÜKƏSİZLİYƏ TƏHDİD KİMİ (CƏNUBİ QAFQAZ DÖVLƏTLƏRİNİN NÜMUNƏSİNDƏ)

**polkovnik-leytenant Xəyal İskəndərov**
**siy.e.ü.f.d. Vüqar Məmmədzadə**
*Silahlı Qüvvələrin Hərbi Akademiyası*
E-mail: xayal1333@gmail.com

***Xülasə.*** Sürətlə dəyişən təhlükəsizlik mühiti bir çox qeyri-hərbi tədbirləri gündəmə gətirmişdir. Bu tədbirlər hərbi əməliyyatlara hibrid forma verməklə, onun xarakterini tamamilə dəyişir. Cənubi Qafqaz regionuna gəldikdə, ayrı-ayrı dövlətlərin yürütdüyü siyasi kurslar arasındakı fərq ümumilikdə regionu siyasi, iqtisadi, hərbi, mədəni və s. kimi müxtəlif xarici təhlükələrə daha həssas edir. Təqdim olunan məqalə Cənubi Qafqaz regionunda hibrid müharibənin yalnız iqtisadi komponentindən bəhs edir. Regiondakı ölkələrin iqtisadi məcburiyyət qarşısında konkret zəifləri (boşluqları) vurğulanır və onların minimuma endirilməsi yolları göstərilir.

**Açar sözlər:** hibrid müharibə, iqtisadi asılılıq, iqtisadi məcburiyyət, iqtisadi təsir, iqtisadi güc.

## Giriş

Hibrid müharibənin aparılmasının əsasını sinergetik təsirlərə nail olmaq üçün xüsusi boşluqlara (zəifliklərə) uyğunlaşdırılmış çoxsaylı vasitələrin sinxron istifadəsi təşkil edir. Boşluq (zəiflik) dövlətin istənilən kritik funksiyasında (sektorunda) ola bilər və beləliklə, "hücum edən ölkəyə" sərəncamında olan vasitələrdən asılı olaraq şəraitdən yararlanmaq və onlardan istifadə etmək imkanı verər. Belə yanaşma Çin Xalq Azadlıq Ordusunun polkovnikləri Qiao Lianq və Vanq Xianqsui tərəfindən təklif edildiyi kimi "qeyri-məhdud müharibə" adlanır: *"Müharibədə tərəflər düşməni öz iradəsinə tabe etmək üçün yalnız silahlı qüvvələrdən istifadə etmir, əksinə öz maraqlarına nail olmaq üçün silahlı və silahsız, hərbi və qeyri-hərbi, öldürücü və qeyri-öldürücü vasitələr daxil, bütün vasitələrdən istifadə edir"* [1, s.28]. Bu ideya strateji məqsədlərə nail olmaq üçün uzunmüddətli yanaşmanı nəzərdə tutur, lakin hibrid müharibədə "silahların" effektivliyi artıq öldürücülük səviyyəsi ilə ölçülmür. Dinc bir cəmiyyətin iqtisadiyyat, siyasət, immiqrasiya və mədəniyyət kimi ümumi aspektləri istənilən vaxt müharibə etmək üçün silaha çevrilə bilər. İqtisadiyyat həm milli, həm də beynəlxalq təhlükəsizliklə sıx bağlıdır: iqtisadi təhlükəsizlik milli təhlükəsizliyin mühüm tərkib hissəsidir. İqtisadiyyat cəmiyyətin daxili fəaliyyətini formalaşdırmaqla, eləcə də beynəlxalq miqyasda ölkənin geosiyasi mövqeyini müəyyənləşdirməklə milli təhlükəsizliyə təsir göstərir [2].

İqtisadi təhlükəsizlik müxtəlif araşdırmaların mövzusu olsa da, iqtisadi asılılıq hibrid müharibənin komponenti və milli təhlükəsizliyə təhdid kimi dərindən tədqiq edilməmişdir. Bundan başqa, iqtisadi asimmetriyanın siyasi təsiri hərtərəfli araşdırılmamışdır. Lakin mövzunun müəyyən aspektlərinə bir sıra tədqiqatçılar tərəfindən toxunulmuşdur. Xristofer Ceys-Dun bir ölkənin dünya iqtisadiyyatındakı asılı mövqeyinin onun iqtisadi inkişafına və gəlir bərabərsizliyinə təsirini tədqiq etmişdir [3]. Mixail Dudin, İrina Fedorova, Lyubov Plotijina və b. dövlətin iqtisadi təhlükəsizliyini bir sistem kimi öyrənməyə çalışmış və bununla bağlı beynəlxalq təcrübəni araşdırmışlar [4]. Riçard Kuper "iqtisadi güc" anlayışını təqdim etmişdir [5]. Sunq Çul Kim "Albert Hirşmanın ticarət asılılığı nəzəriyyəsi"ni yenidən konseptuallaşdırmaqla böyük güc və kiçik dövlətlər arasındakı münasibəti izah etmək üçün "asimmetriya – məcburiyyət" əlaqəsini nəzərdən keçirmişdir [6]. Hiba Hafiz iqtisadi məcburetmə nəzəriyyəsi üçün minimal tələbləri dəqiqləşdirmək məqsədilə məcburiyyətin fəlsəfi nəzəriyyələrini qiymətləndirmişdir [7].

Ədəbiyyat təhlili də göstərir ki, xüsusən Cənubi Qafqaz regionunda iqtisadi asılılıq məsələləri ümumiyyətlə təhdid kimi elmi müstəvidə tədqiq edilməmişdir. Məqalədə məqsəd Cənubi Qafqaz ölkələrinin nümunəsində "iqtisadi məcburiyyət – iqtisadi asılılıq" əlaqəsini əsaslandırmaq, bu asılılığı

aradan qaldırmaq və ya ən azından azaltmaq üçün təklif və tövsiyələr verməkdir. Tədqiqat işinin ərsəyə gəlməsində, müqayisəli təhlil, sintez, induksiya və deduksiya kimi nəzəri tədqiqat metodlarından istifadə edilmişdir.

## İqtisadi asılılığın hibrid müharibədə yeri

Peloponnes müharibəsi ərəfəsində Afinanın Meqara ticarətinə qadağa qoymasından bəri dövlətlər öz xarici siyasət məqsədlərinə çatmaq üçün iqtisadi rıçaqlardan istifadə etmişlər. Bununla belə, iqtisadi təhlükəsizlik ötən əsrin ikinci yarısına qədər ayrıca bir kateqoriya hesab olunmurdu. İqtisadi məsələlər XX əsrin 60-cı illərinin sonlarında daha qabarıq xarakter almış və milli təhlükəsizliyin mühüm siyasi elementi kimi qəbul edilmişdir. Son onilliklərdə qloballaşma və iqtisadi inteqrasiya kontekstində iqtisadiyyat və milli təhlükəsizlik sistemi arasında ayrılmaz bağ yaranmışdır. Bu bağ hər hansı bir dövlətin milli təhlükəsizlik sistemi üçün imkanlarla yanaşı, potensial daxili və xarici təhdid də yaradır. Riçard Kuperə görə, iqtisadi güc qarşı tərəfi öz iradəsinə tabe etmək məqsədilə cəzalandırma və ya mükafatlandırma qabiliyyətini özündə əks etdirir. Güclü iqtisadiyyat milli təhlükəsizliyin təmin olunmasında çox mühüm vasitədir. Lakin bu gücdən bir ölkənin milli mənafeyi, digər ölkənin zərəri üçün istifadə olunarsa, bu, artıq hibrid təhdidə çevrilir. Ona görə də ümumilikdə iqtisadi gücün təsirinin müsbət və ya mənfi olması çox mübahisəlidir və müzakirələrə açıqdır. Tədqiqatçıların böyük əksəriyyəti iddia edir ki, hərbi güc artıq böyük əhəmiyyət daşımır və rəqabətin hazırkı və gələcək xarakterini iqtisadi güc müəyyənləşdirir [5]. Bu fonda iqtisadi təhlükəsizlik mühüm strateji prioritet kimi meydana çıxmışdır. 2018–2022-ci illər üçün İnteqrasiya edilmiş Beynəlxalq Təhlükəsizlik Strategiyasında (IISS) “Həyatı vacib iqtisadi proseslərə təhdidlər” milli təhlükəsizliyə altı ən ciddi təhdiddən biri kimi göstərilmişdir [2]. Tədqiqat işində güclü dövlətin nisbətən zəif dövlətlərə iqtisadi təsirinin siyasi nəticələri təqdim edilir. İqtisadi asimmetriyadan qaynaqlanan məcburiyyət, zəif dövlətlərin suverenliyi və müstəqilliyini təhlükəyə atır. İqtisadi məcburetmə güc tətbiqinə alternativ olaraq hibrid müharibənin ən çox istifadə edilən formalarından biridir. Müasir qloballaşan dünyada strateji məqsədlər üçün siyasi manipulyasiyaya daha həssasdır [8, s.6]. Hər bir ölkənin iqtisadi təhlükəsizliyinə əsas təhdid onun iqtisadi cəhətdən digər ölkələrdən asılılığıdır.

Xarici aktorların iqtisadi imkanlarının Cənubi Qafqaz ölkələrinin də suverenliyi və müstəqilliyinə təsiri qaçılmazdır. Bu rıçaq manipulyasiya edildiyi təqdirdə təsir iqtisadi məcburiyyətlə nəticələnir və güclü tərəfin siyasi təsirinin artmasına səbəb olur.

Xristofer Çeyz-Dun beynəlxalq iqtisadi asılılığın iki növünü vurğulamışdır:

1) ölkəyə xarici kapitalın gətirilməsi, yəni investisiya asılılığı;
2) hökumətin xarici kreditdən asılılığı [3].

Bundan əlavə, Qrant Nordbinin qeyd etdiyi kimi, asılılığın müxtəlif dərəcələri vardır. Ölkə iqtisadiyyatının yalnız bir istiqaməti tamamilə xarici dövlət tərəfindən dəstəklənirsə, bu növ iqtisadi asılılıq yalnız həmin sektora mənfi təsir göstərə bilər. Sözsüz ki, yardım göstərən ölkə hədəf ölkədəki digər sahələrə zərər vermədən hakimiyyəti istədiyi dəyişikliyə yönəldə bilər, lakin bu hər zaman özünü doğrultmur. Məsələn, mavi yanacaq baxımından Ukraynanın Rusiyadan asılılığı məlumdur. Buna baxmayaraq, Rusiya həmin ölkədə öz məqsədlərinə nail olmaqda çətinlik çəkir. Lakin iqtisadiyyatının böyük hissəsinin xarici ölkələrdən asılı olan ölkələr daha asanlıqla manipulyasiya olunur. Məsələn, dörd qonşusundan yalnız ikisi (Gürcüstan və İran) ilə əlaqə saxlaya bilən Ermənistan Respublikası iqtisadi baxımından, Rusiya və İrandan ciddi şəkildə asılıdır. Ermənistan Respublikasının Rusiyanın diktəsindən çıxma ehtimalı hələ ki, yaxın və ortamüddətli perspektivdə mümkün görünmür. Müxtəlif regionlar üzrə təhlillərin nəticəsi göstərir ki, X. Çeyz-Dunun təqdim etdiyi iqtisadi asılılıq növlərindən ikincisi daha təhlükəlidir. Əslində investisiya yatırımında ölkələr balans yarada və diversifikasiya siyasəti yürüdərsə, birinci növ ümumiyyətlə təhdid yaratmır. Hazırda Azərbaycan Respublikasının həyata keçirdiyi siyasət bu baxımdan region ölkələri üçün nümunə hesab oluna bilər. Belə ki, həm xarici investisiyanın ölkəyə cəlb edilməsində (xüsusilə, neft sektoruna), həm də ixrac-idxal nisbətində balansı qorumaqla (idxalı azaltmaq üçün təşəbbüskarlara

müəyyən güzəştlər və ixracı stimullaşdırmaq üçün gömrük sferasında "Yaşıl Dəhliz" buraxılış sistemini tətbiq etməklə), eləcə də dövlətin xarici borcunu minimum həddə endirməklə Azərbaycan Respublikası hər iki təhdidi neytrallaşdırmağa çalışır.

Sunq Çul Kim hər hansı kiçik dövlətin iqtisadi məcburiyyətə həssaslığını üç amillə əsaslandırır:

1) ticarətin konsentrasiyası;
2) qeyri-şəffaflıq;
3) kənar yardımdan asılılıq [6].

Təbii ki, hər üç amil kiçik dövlətin suverenliyi və müstəqilliyinə getdikcə daha çox təhdid yaradır. Lakin onların aradan qaldırılması istiqamətində iqtisadi islahatların aparılması çox qısa zamanda öz səmərəsini verə bilər.

Ticarətin konsentrasiyası təkcə idxal bazarının deyil, həm də ixrac mallarının konsentrasiyasını nəzərdə tutur. Onu da qeyd etmək lazımdır ki, ixrac mallarının konsentrasiyası kiçik iqtisadiyyatlara ciddi zərər versə də, regional və ya qlobal güclər üçün praktiki olaraq təhdid yaratmır. Böyük dövlətlə kiçik dövlət arasında ikitərəfli münasibətlərdə sonuncunun daxili siyasətindəki şəffaflığın dərəcəsi iqtisadi məcburiyyətə həssaslıq dərəcəsinə ciddi təsir göstərir. Qeyd edək ki, kiçik dövlətdə qeyri-şəffaf mühitin mövcudluğu böyük gücə siyasətin formalaşma proseslərinə müdaxilə etmək və öz təsirini göstərmək üçün geniş imkanlar yaradır. İqtisadiyyatında qeyri-şəffaflıq olan ölkələr məcburiyyətə son dərəcə həssasdırlar. Azərbaycan Respublikasının iqtisadi sistemində reallaşan islahatlar (vergi və gömrük sahəsində baş vermiş struktur dəyişiklikləri, sahibkarların fəaliyyətində bürokratik maneələrin aradan qaldırılması, vergi daxilolmalarında nəzarətin gücləndirilməsi və s.) ölkədə şəffaflıq mühitinin təmin olunması istiqamətində mühüm addımlar hesab olunur. Xatırladaq ki, Azərbaycan "Doing Business 2009" hesabatında "ən islahatçı ölkə" titulunu qazanmışdır [9].

Cənubi Qafqaz regionunda xarici aktorlar tərəfindən istifadə oluna biləcək çoxlu zəifliklər (boşluqlar) mövcuddur. İqtisadi asılılıq bu regionda da hibrid müharibəyə yol açan əsas faktorlardan biridir. İqtisadiyyatın zəifləməsi Cənubi Qafqazın istənilən ölkəsinin birbaşa tənəzzülünə səbəb ola bilər. Çünki iqtisadiyyat milli gücün ən mühüm elementlərindən biridir. Bununla belə, Stiven Deyspriq iddia edir ki, iqtisadi müharibə hədəf ölkənin iqtisadi sisteminin bərpa olunmayacaq şəkildə dağıdılması üçün deyil, onun müqavimət qabiliyyətini və ya iradəsini qıracaq dərəcədə istifadə edilməlidir [1].

Hibrid müharibədə təcavüzkar, ilk növbədə "eskalasiya dominantlığına" malik olmalıdır. Bu eskalasiyanın müxtəlif mərhələlərində təcavüzkar hədəfinə müəyyən dərəcədə təsir etməklə öz məqsədinə çatır. 2022-ci il yanvar ayının əvvəlində Qazaxıstanda baş verən böhran bunu sübut etdi. Həmin böhran Mərkəzi Asiyanın ən firavan və sabit ölkəsini bir növ sirkələdi. Bu, həm də sübut etdi ki, iqtisadiyyat bütün ölkəni və onun milli təhlükəsizliyini sarsıtmaq üçün bir vasitə kimi istifadə edilə bilər. Bu baxımdan, hibrid müharibənin elementi kimi iqtisadi asılılıq hibrid təcavüzkarın hədəflərinə nail olmasına imkan yaradır və iqtisadi məcburiyyətlə nəticələnir. Tədqiqatçı Conatan Kirşner iqtisadi məcburiyyətin dörd növünü təqdim etmişdir: xarici yardım, valyutanın gücü, maliyyə gücü və ticarət [10].

Sanksiyalar, həyati əhəmiyyət kəsb edən kommersiya əlaqələrini kəsmə hədələri, hədəf ölkəni zəiflətmək üçün nəzərdə tutulmuş gizli və ya açıq şəkildə iqtisadi məcburetmələr də daxil olmaqla iqtisadi sabitliyin pozulması Cənubi Qafqaz regionunun manipulyasiyasına gətirib çıxara bilər. Bundan başqa, regionda kollektiv Qərblə Rusiya (müəyyən dərəcədə Türkiyə, İran və Çin) arasında maraqlar balansı ən həssas məsələlərdəndir. Zəif iqtisadi göstəricilər, regional və beynəlxalq əhəmiyyətli məsələlərin (Gürcüstanın NATO üzvlüyünə can atması, eyni zamanda Abxaziya və Cənubi Osetiyada nəzarəti itirməsi, Rusiyanın regionda dayaq nöqtəsi hesab olunan Ermənistan üzərində Azərbaycanın möhtəşəm qələbəsi, Ermənistanın revanşist siyasətçilərinə xarici dəstəyin verilməsi, Qarabağın ermənilərin kompakt məskunlaşmış hissəsində qanunsuz silahlı birləşmələrin mövcudluğu, Qarabağda müvəqqəti yerləşən Rusiya sülhməramlılarının ermənilər tərəfindən qaynaqlanan bir çox ciddi qanun pozuntularına "göz yumması") mövcudluğu və regional təhlükəsizlik mexanizminin formalaşmaması Cənubi Qafqazı xarici müdaxilələrə həssas edir.

Rusiyanın bununla bağlı strategiyası regionda daha qabarıq görünür. Məsələn, Gürcüstanı öz iradəsinə tabe etmək üçün Rusiyanın bir neçə onilliklər boyu istifadə etdiyi əsas qeyri-hərbi vasitələrindən biri "iqtisadi müharibə" olmuşdur. Hələ 1995-ci ildə Gürcüstan prezidenti Eduard Şevardnadze Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəmərinin reallaşmasının qarşısını almaq üçün Rusiyanın səylərinin artdığını iddia etmişdi [11]. Mixail Saakaşvili hakimiyyətə gəldikdən sonra, daha dəqiq 2004-cü ilin sentyabrında Moskva Gürcüstanla bütün nəqliyyat əlaqələrini kəsmiş, o cümlədən Gürcüstanın aviaşirkətləri üçün Rusiya hava məkanını bağlamışdı. Bu addımlar, guya Gürcüstanın kommersiya müəssisələrinin rus investorlarına olan borclarını toplamaq məqsədi daşıyırdı, lakin əslində Gürcüstanın Avropa və ABŞ-ın kommersiya maraqları istiqamətində fəaliyyət göstərən müstəqil assosiasiyalarının cəzalandırılmasına hesablanmışdı. Nəqliyyat əlaqəsinin bağlanmasının ardınca, 2006-cı ilin dekabrında "Qazprom" şirkəti Gürcüstana ixrac olunan qazın qiymətini iki dəfə qaldırmışdı. Təbii ki, Rusiyanın tədbirləri bunlarla məhdudlaşmamışdı. Əlavə olaraq, Gürcüstanın istehlak məhsullarının Rusiyaya girişinə qadağa qoymaqla Moskva Gürcüstana iqtisadi zərbə vurmağa çalışmışdır. 2006-cı ilin yazında Rusiya gürcü şərabı və mineral sularının, ardınca bütün növ gürcü mallarının idxalına tam embarqo qoymuşdu. Gürcüstan mallarının idxalına embarqodan başqa, Moskva etnik gürcülərin Rusiyadan kütləvi deportasiyasına başlamışdı ki, bu da Gürcüstanın qərbyönlü siyasətinə narazılıq əlaməti idi [11].

2020-ci ilin dekabr ayında Rusiya iqtisadi embarqo alətindən Azərbaycana qarşı da istifadə edərək, bəzi kənd təsərrüfatı mallarına (alma və pomidora) sanksiya tətbiq etmişdi [12]. Bakıya qarşı tətbiq edilən embarqonun müddəti uzun və həcmcə böyük olmasa da, bu halın gələcəkdə təkrarlanması istisna edilmir. Qeyd etmək lazımdır ki, Tiflis Rusiyanın, hətta hərbi kampaniyaya əl atmaqla Gürcüstan iqtisadiyyatına zərbə vurmağa çalışdığını iddia etmişdi. 2008-ci il avqustun 15-də Gürcüstanın Kaspi şəhərində iqtisadi cəhətdən vacib olan dəmir yolu körpüsü partladılmış və turizm üçün mühüm əhəmiyyət daşıyan Borjomi Milli Parkında yanğın baş vermişdi, bu da, öz növbəsində Gürcüstan iqtisadiyyatına mənfi təsirini göstərmişdi. Gürcüstan hakimiyyəti həmin hadisələri təxribat adlandırmış və onların baş verməsində Rusiyanı ittiham etmişdi [1, s.93].

Eyni yanaşma Rusiya tərəfindən Ukraynaya da tətbiq edilmişdi. 2014-cü ildə Kiyevdə və Ukraynanın şərqində baş verən iğtişaşlar zamanı Rusiya hökuməti tərəfindən idarə olunan "Qazprom" şirkəti Viktor Yanukoviçin imzaladığı qaz endirimi sazişini [13] ləğv etmişdi və bu, faktiki olaraq Ukraynanın enerji sektorunu zəiflətmişdi. Ukraynanı öz təsir dairəsinə qaytarmaq məqsədinə çatmaq üçün, şübhəsiz ki, həm qeyri-ənənəvi, həm də ənənəvi vasitələrdən istifadə etməklə, Moskva, düşünürdü ki, Kiyevin iflasa uğrayan iqtisadiyyatı ölkədə narazılıq yaradacaq və nəticədə onu yenidən Rusiyanın orbitinə qaytaracaq [14]. 2022-ci ilin fevral ayında Rusiyanın rəsmi olaraq Ukrayna ərazisinə müdaxiləsi Moskvanın iqtisadi təsir vasitələrindən istifadə etməklə Kiyev üzərində istədiyinə nail ola bilməməsinin göstəricisidir.

X. Çeyz-Duna görə, iqtisadi gücü müqayisə etmək üçün ən mühüm faktorlardan biri adambaşına düşən ümumdaxili məhsuldur (ÜDM) [3]. Ona görə də Cənubi Qafqaz regionunun hər üç ölkəsinin ÜDM-ini müqayisə etmək məqsədəuyğun olardı. Son on ilin təhlili göstərir ki, ÜDM göstəricisinə əsasən Azərbaycan Gürcüstan və Ermənistanı azı 3–4 dəfə qabaqlayır [15]. Azərbaycanın çoxvektorlu xarici siyasət kursunu müəyyən edən əsas faktlardan biri də məhz budur.

Güclü valyuta xarici təsirin qarşısını almaq üçün son dərəcə vacib bir vasitədir. 2016-cı ildə dünya bazarlarında neftin qiymətinin düşməsi ilə əlaqədar, manatın təxminən iki dəfə dəyər itirməsinə baxmayaraq, Azərbaycan uzun müddətdir ki, öz valyutasını sabit saxlamaq məqsədilə neft və qaz gəlirlərindən istifadə edir. Qrant Nordbinin qeyd etdiyi kimi, bu cür vəziyyət (neftin qiymətinin azalması) sistematik xarakter alarsa, Azərbaycanın valyutası və iqtisadiyyatına ciddi ziyan dəyə bilər [10]. Gürcüstan və Ermənistan öz valyutalarının məzənnəsini sabit saxlamaq üçün resurslara malik olmadığından, onlar bu təhdidə daha həssasdırlar. Bu məqamı nəzərə alsaq, 2021-ci ildə Azərbaycan, Gürcüstan və Ermənistanda ÜDM-ə nisbətdə dövlət borcu, müvafiq olaraq, 28,88%, 54,25% və 62,15% təşkil etmişdir [15]. Bu rəqəmlər onu göstərir ki, Azərbaycan regionda ÜDM-ə nisbətdə ən az dövlət borcu olan ölkədir.

Qrant Nordbi bildirir ki, maliyyə gücünün həyata keçirilməsi valyutanın dəyərinin tənzimlənməsi qədər asan deyil, çünki xarici investisiyalar üzərində yeganə səlahiyyətə malik olan hökumət deyil [10]. Bununla belə, valyutanın dəyəri və maliyyə gücü bir-biri ilə əlaqəlidir, çünki hər ikisi valyuta əsaslı aktivlərin mövcudluğuna əsaslanır. Nəzəri baxımdan maliyyə gücü ictimaiyyətin – bu halda korporasiyaların iradəsindən daha çox asılıdır, çünki onlar ölkədə biznesin aparılması xərclərinə əhəmiyyətli subsidiya ayırır. Zəngin təbii sərvətlərə malik olması Azərbaycana geniş manevr imkanları verir. Bununla belə, 2,5 milyona qədər azərbaycanlının da əsas maliyyə gəlir mənbəyi Rusiyadır. Rusiya Mərkəzi Bankının məlumatına görə, 2021-ci ildə Rusiyadan Azərbaycana pul köçürmələri 1 milyard 133 milyon ABŞ dollarından çox [16], Rusiyadan Gürcüstana pul köçürmələri isə 371,8 milyon ABŞ dolları məbləğində olmuşdur [17]. Ermənistan Mərkəzi Bankının məlumatına görə, 2021-ci ilin yanvar-noyabr aylarında fiziki şəxslərin xaricdən respublikaya şəxsi köçürmələrinin həcmi 1 milyard 898 milyon dollar olmuşdur ki, bu vəsaitin 781 milyon dolları Rusiyanın payına düşür [18].

Bu gün Moskva İrəvan üzərində güclü nəzarət imkanlarına malikdir. 2016-cı ildə xaricdən Ermənistana köçürülən 896,9 milyon dolların 60%-i Rusiya Federasiyasının payına düşmüşdür. 2019-cu ildə isə Ermənistana köçürülən 1.959 milyard dollar vəsaitin 1 milyard 56 milyon dolları Rusiyadan daxil olmuşdur [19]. Bundan başqa, Dünya Bankının Biznesin Asanlıq Fəaliyyətinin (EODB) hesabatına görə, Cənubi Qafqaz dövlətləri arasında Ermənistan ən pis göstəriciyə malikdir. 2020-ci ilin statistikasına görə, EODB balı baxımından Ermənistan 47-ci, Gürcüstan 7-ci, Azərbaycan isə 34-cü yerdədir [20].

Qlobal ticarət mühitinin getdikcə daha "şıltaq" xarakter aldığı bir şəraitdə böyük güclərin siyasi məqsədlərə nail olmaq üçün iqtisadi rıçaqlardan istifadə etməsi kiçik ölkələr üçün yeni risklər yaradır. Region ölkələrinin ticarət tərəfdaşı kimi, ilk növbədə beş əsas aktor iştirak edir: Aİ, ABŞ, Rusiya, Çin, Türkiyə və İran. ABŞ və Aİ faktoru Tiflis üçün xüsusilə vacibdir. Bununla belə, regionda iki aktor bir-biri ilə kəskin şəkildə qarşı qarşıyadır: kollektiv Qərb və Rusiya. Aİ-nin 2009-cu ildə başlatdığı Şərq tərəfdaşlığı təşəbbüsü, ona regionda Avropa dəyərlərinin təşviqinə dəstək verən layihələri maliyyələşdirməyə imkan verir. Bu qeyri-hərbi təsir vasitəsi Moskva üçün problem yaradır, çünki bu layihəyə qoşulan keçmiş sovet ölkələrində (Belarus, Moldova, Ukrayna, Gürcüstan, Azərbaycan və Ermənistan) Rusiyanın imkanlarını zəiflədir. Kollektiv Qərbin Aİ-nin şərqə – yəni Ukrayna, Moldova, Gürcüstan və Azərbaycana növbəti böyük genişlənmə perspektivi rəsmi Moskva üçün qəbuledilməz hesab olunur. Rusiyaya görə, bu, Qara dənizə nəzarətin itirilməsi, Qafqazda Avropa forpostunun yaranması və Azərbaycanın karbohidrogen ehtiyatlarına Aİ-nin bilavasitə çıxışının əldə edilməsi deməkdir.

Qeyd olunduğu kimi, Azərbaycanın zəngin təbii sərvətləri ona xarici siyasətdə manevr imkanları yaradır. Xüsusilə, neft-qaz kəmərlərinin deversifikasiyasını (Qərb və Şimal marşrutları) Azərbaycan uğurla həyata keçirmişdir. Bu isə sürətlənən mürəkkəb qlobal geosiyasi və geoiqtisadi proseslər fonunda Azərbaycan üçün yarana biləcək riskləri azaldır. Lakin bu faktor hibrid müharibənin iqtisadi komponentinin təsirini azaltsa da, onu tamamilə neytrallaşdıra bilmir. Beləliklə, "yumşaq güc" faktoru öz aktuallığını saxlayır. Məsələn, Stiven M. Deysprinqin fikrincə, bir ölkənin kritik iqtisadi funksiyanı müdafiə etmək qabiliyyəti, onun bank sistemlərinə eyni vaxtda kiberhücumların edilməsi və ya hər hansı kritik resursun idxalının əngəllənməsi ilə ciddi dərəcədə zəifləyə bilər [1]. Ölkə sərhədini keçən tank briqadası ilə müqayisədə, bu, daha ciddi təhdid hesab olunur.

## Nəticə

Beləliklə, iqtisadi asılılıq zəif ölkələri onlara qarşı aparılan hibrid müharibədə öz suverenliklərindən imtinaya vadar edən əsas səbəblərdən biridir. Cənubi Qafqaz ölkələrinə gəlincə, bu amil Rusiyanın təhlükəsizlik təminatçısı kimi çıxış etdiyi Ermənistanda xüsusilə nəzərə çarpır. Təbii sərvətlərə, xüsusən də neft və qaz ehtiyatlarına malik olması və onların diversifikasiyasını reallaşdırması Azərbaycanın iqtisadi asılılığını azaltsa da, xarici aktorların müdaxiləsinin qarşısını

almaq üçün yetərli deyil. Gürcüstan və Ermənistandan fərqli olaraq, həm siyasi, həm də iqtisadi kursların şaxələndirilməsi Azərbaycana öz asılılığını azaltmağa imkan verir. Çünki istənilən halda iqtisadi asılılıq iqtisadi məcburiyyətə, nəticədə region ölkələrinin bir-birinə qarşı manipulyasiyasına gətirib çıxarır. Buna görə də hər bir ölkədə iqtisadi həmrəylik, eləcə də regiondakı xalqlar arasında birlik son nəticədə regionda təhlükəsizlik mühitinin formalaşmasına müsbət təsir göstərə və xarici aktorlardan qaynaqlanan iqtisadi təhdidləri azalda bilər. Qərbin Rusiyaya tətbiq etdiyi izolyasiya siyasəti regionda Moskvadan daha çox asılı olan İrəvan üçün yeni çağırışlar deməkdir. Rusiyanın neft-qaz sektoruna Qərbin embarqosu tətbiqinin fonunda, sərhədlərinin 83%-i qapalı olan Ermənistanın ölkənin yanacaq ehtiyacını, əsasən, Rusiyadan qarşıladığını nəzərə alsaq, İrəvanın hansı təhdidlərlə üzləşəcəyi təsəvvür etmək elə də çətin deyil. Bu səbəbdən Ermənistan qeyri-konstruktiv xarici siyasətindən əl çəkməli, İkinci Qarabağ müharibəsindən sonra yaranmış reallığı və yeni regional düzəni qəbul etməlidir. Regional əməkdaşlığın genişləndirilməsinə və qarşılıqlı etimadın artırılmasına xidmət edən 10 noyabr 2020-ci il tarixli bəyanatdan irəli gələn imkanlardan regionun bütün ölkələri yararlana bilər. Belə ki, bəyanatın doqquzuncu maddəsində qeyd olunur: *“Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələri və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”* [21, s.120]. Rusiya–Ukrayna münaqişəsi əsasında formalaşan Moskva–Vaşinqton böhranı bu nəqliyyat kommunikasiya (Zəngəzur) dəhlizinin aktuallığını artırır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Dayspring, S.M. Toward a theory of hybrid warfare: the Russian conduct of war during peace / Master’s thesis. Naval Postgraduate School. – December 2015. – 221 p.
2. Retter, L. Relationships between the economy and national security. Analysis and considerations for economic security policy in the Netherlands / L.Retter, E.Frinking, S.Hoorens, et al. – Santa Monica, Calif., and Cambridge: RAND Corporation, – 2020. – 182 p.
3. Chase-Dunn, Ch. The effects of international economic dependence on development and inequality: a cross-national study // American Sociological Review, – December 1975. Vol. 40. – p. 720-738.
4. Dudin, M.N. International Practices to Improve Economic Security / M.N.Dudin, I.J.Fedorova, L.A.Ploticina et al. // European Research Studies Journal, 2018. Volume XXI, Issue 1. – p. 459-467.
5. Cooper, R.N. Is “Economic Power” a Useful and Operational Concept? [Electronic resource] / – 2004. URL: https://bit.ly/3HT0S3E.
6. Kim, S.C. China and Its Neighbors: Asymmetrical Economies and Vulnerability to Coercion: [Electronic resource] // Issues & Studies: A Social Science Quarterly on China, Taiwan, and East Asian Affairs, – December 2019. Vol. 55, No. 4. – p. 1-25. URL: https://bit.ly/3fPVbqA.
7. Hafiz, H. Beyond Liberty: Toward a History and Theory of Economic Coercion // Tennessee Law Review, – 2016. Vol. 83, – p. 1071-1136.
8. Countering Hybrid Threats: Lessons Learned from Ukraine / edited by N.Iancu, A.Fortuna, C.Barna, M. Teodor. – Amsterdam, Berlin, Washington DC: IOS Press, – 2016. – 286 p.
9. Dünya Bankı “Doing Business” hesabatını dayandırır - bəs Simeon Cankov Azərbaycandan nə istəyir?: [Electronic resource] / – 17 sentyabr 2021. URL: https://marja.az/76309/dunya-banki-doing-business-hesabatini-dayandirir-bes-simeon-cankov-azerbaycandan-ne-isteyir.
10. Nordby, G. The Four Types of Economic Coercion: [Electronic resource] / – June 5, 2019. URL:https://bit.ly/3qTMq4W.

11. Mouravi, G.T. External Political Actors and Influences in the South Caucasus // Sociology and Anthropology, – 2016. 4(8). – p. 698-709.

12. Россельхознадзор запретил ввоз помидоров и яблок из Азербайджана: [Электронный ресурс] / – 8 декабря 2020 г. URL:https://www.kommersant.ru/doc/4604831.

13. Carment, D. War's Future: The Risks and Rewards of Grey-Zone Conflict and Hybrid Warfare: [Electronic resource] / – October 2018, URL:https://bit.ly/39Ymji1.

14. Calha, J.M. Hybrid Warfare: NATO's new strategic challenge?: [Electronic resource] / General report. NATO Parliamentary Assembly, Defence and Security Committee. – October 10, 2015. URL: https://bit.ly/3ILoYNB.

15. Caucasus countries: National debt from 2012 to 2022 in relation to gross domestic product: [Electronic resource] / – November 24, 2021. URL: https://www.statista.com/statistics/980478/national-debt-of-the-caucasus-countries-in-relation-to-gross-domestic-product-gdp/.

16. Денежные переводы в Азербайджан в 2021г увеличились на 3,6%: [Электронный ресурс] / – 18 .02.2022. URL:http://interfax.az/view/858926.

17. Денежные переводы от мигрантов в Грузию продолжают расти: [Электронный ресурс] / – 17 декабря 2021. URL: https://sputnik-georgia.ru/20211217/denezhnye-perevody-ot-migrantov-v-gruziyu-prodolzhayut-rasti-262919873.html.

18. В Армении подсчитали трансферты: Россия – лидер, Турция – замыкает десятку [Электронный ресурс] / – 27 января 2022. URL: https://eadaily.com/ru/news/2022/01/27/v-armenii-podschitali-transferty-rossiya-lider-turciya-zamykaet-desyatku.

19. Hergnyan, S. 2019: A Record $1.454 Billion in Overseas Bank Transfers from Armenia: [Electronic resource] / – February 12, 2020. URL: https://bit.ly/3HRUR6L.

20. Ease of doing business ranking: [Electronic resource] / – December 2020. URL: https://www.doingbusiness.org/content/dam/doingBusiness/pdf/db2020/Doing-Business-2020_rankings.pdf.

21. Piriyev, H. İkinci Qarabağ müharibəsi. Hərbi–siyasi təhlil / H.Piriyev, R.Tahirov, X.İskəndərov. – Bakı: Hərbi Nəşriyyat, – 2022, – 168 s.

## Аннотация
## Экономическая зависимость как угроза национальной безопасности (на примере государств Южного Кавказа)

**Хаял Искандаров, Вугар Мамедзаде**

Быстро меняющаяся среда безопасности выдвинула на передний план множество невоенных мер. Эти меры полностью меняют характер военных действий, придавая ему гибридный характер. Что касается региона Южного Кавказа, то отличие политических курсов отдельных государств делает его более чувствительным к различным внешним угрозам, таких как политические, экономические, военные, культурные и т.д. В представленной статье рассматривается только экономическая составляющая гибридной войны в регионе Южного Кавказа. Выделены специфические уязвимости (слабости) стран региона перед лицом экономического принуждения и показаны пути их минимизации.

**Ключевые слова:** гибридная война, экономическая зависимость, экономическое принуждение, экономическое влияние, экономическая мощь.

**Abstract**

**Economic dependence as a threat to national security**
**(In the sample of the South Caucasus states)**
**Khayal Iskandarov, Vugar Mammadzada**

The rapidly changing security environment has brought a plethora of non-military measures to the fore. These measures change the nature of hostilities completely by giving it a hybrid character. With regard to the South Caucasus region, the chasm among the political courses pursued by particular states makes the overall region more susceptible to diverse external threats, like political, economic, military, cultural, etc. However, the paper deals with only the economic component of the hybrid warfare in the South Caucasus region. The vulnerabilities of the particular nations in the region to economic coercion have been highlighted and the ways to improve them have been introduced.

**Keywords:** hybrid warfare, economic dependence, economic coercion, economic leverage, economic power.

*Məqalə redaksiyaya daxil olmuşdur: 15.12.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 22.01.2022*
*Çapa qəbul edilmişdir: 11.03.2022*

## ELMİ MƏQALƏLƏRİN TƏRTİB EDİLMƏSİNƏ DAİR TƏLƏBLƏR

Təqdim edilən məqalələr jurnalın elmi istiqamətinə (hərbi-nəzəri elmlər, hərbi-xüsusi elmlər, hərbi təbabət, milli təhlükəsizlik) uyğun, aktual elmi problemlərə aid tədqiqatların ilk dəfə dərc olunması üçün nəzərdə tutulmuş materiallara malik olmalıdır. Məqalələr üç dildə (Azərbaycan, rus və ya ingilis) təqdim edilə bilər.

Məqalə MS WORD mətn redaktorunda 12-lik Times New Roman şrifti ilə yığılmalı, sətirlər arası məsafə 1 olmalıdır. Məqalənin birinci səhifəsinin yuxarı sol tərəfində UOT (UDK) indekslər göstərilməlidir. Mətnin əvvəlində məqalənin adı, müəllif(lər) haqqında məlumat (onların adı tam şəkildə, elmi dərəcəsi, elmi adı və hərbi xidmətdə olanlar üçün hərbi rütbəsi), müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisə(lər)in ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı və telefon nömrələri qara rəngli qalın şriftlə verilməlidir. Bu məlumatlardan sonra üç dildə (Azərbaycan, rus, ingilis) 5–6 sözdən ibarət açar sözlər, daha sonra isə məqalənin yazıldığı dildə qısa xülasə (100 sözdən çox olmamaqla) göstərilməlidir. Xülasədə tədqiqat işinin mahiyyəti, müəllif(lər)in aldıqları elmi nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti və s. yığcam şəkildə öz əksini tapmalıdır.

Məqalənin mətni 6–10 səhifə (A4 formatında) həcmində olmalı, səhifələrdə isə bütün tərəflərdən 20 mm boş məsafə saxlanmalıdır. Səhifələrin nömrəsi səhifənin aşağı hissəsinin sağ tərəfində qoyulmalıdır. Cədvəllər, qrafiklər, diaqramlar, şəkillər və fotolar mətnin daxilində yerləşdirilməklə məqaləyə daxil edilə bilər.

Elmi məqalədə mövzu üzrə qısa təhlil verilməli, onun aktuallığı əsaslandırılmalı, həll olunmalı məsələlər açıqlanmalı və onların həlli yolları göstərilməli, əldə edilən nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

Elmi mənbələrə edilən istinadlar mətndə kvadrat mötərizədə verilməlidir (məsələn, [1] və ya [1, s.119]). Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndəki ardıcıllığı ilə nömrələnməlidir. Ədəbiyyat siyahısında son 10 ildə nəşr edilmiş elmi məqalələrə, monoqrafiyalara və digər etibarlı mənbələrə üstünlük verilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələbləri əsas götürülməlidir.

"İstifadə edilmiş ədəbiyyat siyahısı"ndan sonra məqalənin adı, müəlliflər haqqında məlumat və xülasə (məqalənin yazıldığı dildən əlavə, yuxarıda qeyd edilmiş daha iki dildə) verilməlidir.

Müəllif(lər) məqaləni çapa tövsiyə edən kafedra və ya təşkilatın iclas protokolundan çıxarışı, məqalənin A4 formatında çap olunmuş nüsxəsini, məqalənin elektron variantı yazılmış CD və ya DVD diski, eləcə də məqalə müəllif(lər)i ilə əlaqə saxlamaq üçün telefon nömrələrini təqdim etməlidir.

Redaksiyaya daxil olmuş məqalələr anonim rəyçilərin rəyindən (2 müsbət rəydən) sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə olunacaq. Təqdim olunan məqalənin dərc olunmasından imtina edildiyi halda jurnalın redaksiyası yazılı şəkildə müəllifə imtina cavabı göndərəcəkdir.

## ТРЕБОВАНИЯ К ОФОРМЛЕНИЮ НАУЧНЫХ СТАТЕЙ

Представленные для публикации в журнале статьи должны соответствовать научным направлениям (военно-теоретические науки, военно-специальные науки, военная медицина, национальная безопасность) журнала и содержать материалы отражающие результаты исследований научно-актуальных проблем, предназначенные для первичной публикации. Статьи могут быть представлены на одном из следующих языков – азербайджанском, русском или английском.

Статья должна быть подготовлена в редакторе MS WORD, шрифт Times New Roman – 12. Междустрочный интервал – одинарный. На левой верхней части первой страницы должны быть указаны индексы УДК (UOT). В начале статьи должны быть указаны в полужирным черным шрифтом название статьи, сведения об авторе(ах) (полное имя, учёная степень, учёное звание и воинское звание для военнослужащих), место работы с указанием адреса(ов), адрес

электронный почты и номер телефона. Далее должны быть приведены ключевые слова на азербайджанском, русском и английском языках (состоящих из 5–6 слов), а затем краткая аннотация (не более 100 слов) на языке набранной статьи. В аннотации должны кратко отражаться сущность исследования, полученные научные результаты автора(ов), научная новизна работы, ее прикладное значение, и т.д.

Статья должна быть в объеме 6–10 страниц (в формате А4 машинописного текста). Поля страницы со всех сторон 20 мм. В статье могут быть размещены таблицы, графики, диаграммы, рисунки и фотографии.

В статье приводиться краткий анализ по содержанию работы, а также обосновывается актуальность темы, раскрывается решаемые задачи и указываются способы ее решения. Кроме этого, должны быть изложены полученные результаты, новизна работы, ее прикладное значение и т.д.

Ссылки на научные источники должны указываться в квадратных скобках (например, [1] или [1, с.119]). Указанный список литературы в конце статьи должен нумероваться в порядке последовательности цитируемой литературы в тексте. В списке литературы предпочтение должно отдаваться научным статьям, монографиям и другим надёжным источникам последних 10 лет.

Библиографическое описание цитируемого источника должно соответствовать требованиям Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

После раздела «Использованная литература», кроме языка, на котором написана статья, пишется название статьи, сведения об авторе(ах) и аннотация еще на двух других языках, указанных выше.

Автор(ы) вместе со статьей должен(ы) предоставить выписку из протокола заседания кафедры или учреждения рекомендовавшего ее для публикации, один экземпляр напечатанной статьи, его электронный вариант, написанный на диске CD или же DVD, а также контактные телефонные номера.

Поступившие в редакцию статьи после рецензирования (2 положительных заключения) по представлению редактора по специальности или одного из членов редакции будут рекомендованы в печать. При отказе печатать статью редакция журнала в письменной форме уведомит об этом автора(ов).

## RULES FOR COMPILING SCIENTIFIC ARTICLES

Artıcles, submitted to be published in this journal must be appropriate to the norms and standards of researches being covered by its scope (military theoretical sciences, military special sciences, military medicine, and national security). The articles can be submitted in three (Azerbaijan, Russian and English) languages.

An article should be typed in MS WORD text edited in Times New Roman – with 12 shrift, 1 inter-line space. UDC (UOT) indexes are to be put on the left top of the first page. The topic of the article, information about the author, (full name, scientific degree, scientific position, military rank for servicemen), the names of the institutions, where the authors work for, the address of the very institutions, authors' e-mail account and phone numbers must be given in bald black colour. After this information, keywords in three languages (Azerbaijan, Russian, English) consisting of 5–6 words, then abstract (no more than 100 words) in the language in which the article is produced are to be written. The essence of the study, scientific results achieved by the author(s), scientific significance, practicality are to be briefly written in the abstract.

The text of the article is to be 6–10 pages (A4 format) and the dimension of the pages must be from all sides 20 mm. Numbering of the pages would be on the right bottom of each page. Schemes, graphics, diagrams, pictures and photos may be included by inserting them in the text of the article.

Brief analysis is to be given, the topicality of the subject is to be proved, the issues which are going to be solved must be clarified and the ways of the solution, the results, economic efficiency and etc. are to be clearly shown in a scientific article.

The references linked to the scientific sources, must be noted in bracket at the end of the sentence, which is extracted from a source. (For example, [1] or [1, p.119]). The list of the reference at the end of the article is to be in the same sequence with the citations in the article. The sources of the late 10 years should be preferred in the reference list.

While giving the bibliographic description, the requirements of the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan should be met.

The abstract of the article is to be designed in two more languages besides the language, the article is written. The abstracts in various languages must be appropriate to the content of the article. Scientific results, topicality of the subject, essence for applicability are to be reflected in the abstract. The abstracts must be scientifically and grammatically edited. In either abstract, the full name of the article and the author must be put on.

Contact number is to be noted at the end of the article to keep in touch with the author. While the author submits the article, an excerpt from a protocol of the organization or department where he or she works, a printed copy of the article, herewith a burnt digital copy on CD or DVD are to be handed over as well.

Only twice reviewed papers will be published in the journal after being considered by the editor. When paper is rejected then author will be informed about it.

Çapa imzalanıb 23.05.2022. Ofset çap üsulu.
Formatı 60/84 ⅛. Fiziki ç.v.8. Sifariş 576.

Hərbi Nəşriyyatın mətbəəsində çap olunmuşdur.
Bakı, akad. Ş.Mehdiyev 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası

№ 1(8)